

## Ceyhun Bayramovdan Zəngəzur dəhlizi ilə bağlı açıqlama

*"Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli birgə bəyanatı xüsusilə regionda kommunikasiya xətlərinin açılması ilə əlaqədar olan 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatı ilə daha da inkişaf etdirilib, regionda nəqliyyat kommunikasiya xətlərinin açılması üçün konkret istiqamətlərdə fəaliyyətə başlanılıb".*

Səh.2

# UNİKAL

№41 (2079) 12 noyabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru



## Samir Şərifovun absurd bahalaşma açıqlamasının pərdəarxası

### Həftənin sualı: Maliyyə naziri, doğrudanmı, marketlərdə və mağazalardakı qiymətlərdən məlumatsızdır?

*Yola salmaq üzrə olduğumuz həftə Maliyyə naziri Samir Şərifov ölkədə qiymətlərin kəskin artmasına münasibət bildirərkən ilginc fikirlər səsləndirdi. Nazir kənd təsərrüfatı və ərzaq məhsulları ilə bağlı dövlət rüsumunun artırılmasına münasibət bildirərkən ərzaq məhsullarının rüsumunda artım olmadığını dedi. Sitat: "Hamıya bildirirəm ki, heç bir ərzaq məhsulunun rüsumunda bir qəpik də olsun artım yoxdur. Ərzaq məhsullarının qiymətinə təsir edəcək dövlət rüsumlarında artım yoxdur. Bu, tamamilə əsası olmayan uydurmalardır".*

Səh.8

Səh.9



## Rusiya sülhməramlılarından narazılıq böyüyür

## "2022-ci ildə irimiqyaslı sosial paketin təqdim olunması nəzərdə tutulur"



*Məlum olduğu kimi, 2022-ci ilin büdcə layihəsi Milli Məclisdə müzakirə olunur. Gələn ilin büdcəsi müstəqillik dövrümüzdə ən böyük büdcə oluğu üçün cəmiyyətdə müxtəlif gözləntilər var. "Unikal" qəzetinə müsahibə verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq...*

Səh.4

## Cavanşir Feyziyev - deputat, yoxsa biznesmen...



*Günlərdir ölkə mediası Cavanşir Feyziyevin ailə üzvlərinin Londonun bank hesablarındakı 20.5 milyon dollarının (15.3 milyon funt sterlinq) müsadirə edilməsindən yazır. İngiltərənin Milli Kriminal Agentliyi bu pulların Böyük Britaniyaya qanunsuz olaraq daşınmış "çirkli pullar"...*

Səh.5

## 17 min şəxsi əhatə edəcək Zəfər Amnistiyası...



*Xəbər verdiyimiz kimi, 8 noyabr - Zəfər Gününün Azərbaycan xalqı üçün müstəsna əhəmiyyəti nəzərə alınaraq və humanizm ənənələrini davam etdirərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən amnistiya elan edilməsi təşəbbüsü irəli sürülüb. Artıq Zəfər Günü münasibətilə elan olunmuş Amnistiya aktının icrasına başlanılıb. Noyabrın 5-də ədliyyə naziri Fikrət Məmmədov tərəfindən...*

Səh.11

# Xatirə toya neçəyə gedir? - Müğənni izləyicisi ilə alver etdi



***Müğənni Xatirə İslamın İnstaqramda izləyicisi ilə etdiyi müzakirə marağa səbəb olub.***

Belə ki, sənətçi hesabında "Gəlin bir az musiqidən danışaq", - şərhini yazaraq post paylaşıb. "Unikal" olay-a istinadən xəbər verir ki, sosial şəbəkə istifadəçilərindən biri "İndidən pul yığıram ki, öz toyumda sizi dəvət edim, məclisi idarə edəsiz. 2400 manat yığmışam", - rəyini yazıb.

X.İslam isə sözügedən rəyə "Can, hələ bir az da yığ" cavabını verib. Onun yarızarafat, yarıciddi şərhi diqqət çəkməyi bacarıb.

# "Ad günümüzdə xına mərasimi edəcəyik" - Əkizlər



***Müğənnilər Sevil və Sevinc Səfərova bacıları şəxsi həyatları və ad günləri ilə bağlı sualları cavablandırıblar.***

Əkizlər bu haqda "7 canlı" proqramında deyiblər. Bacılar bildirib ki, ad günündə xınayaxdı edəcəklər: "Başa düşürük, 31 yaşımız var ailə həyatı qurmalıyıq. Ağılsız deyilik, yaxşı taleyə təpik ataq. Allah qismət etsin. Atam rəhmətə gedəndən sonra ad günü keçirməmişik. Ancaq özümüz, ailəvi dostlarımız yığışırıq. Noyabrın 15-də qızlarla toplaşacağıq. Ad günümüzdə qızlarla bərabər xına mərasimi keçirək".

Proqramın aparıcısı Vüsalə Əlizadə isə "Ad günü adı altında xına edirlər" sözlərini söyləyib.

Əkizlər daha sonra bir müddət əvvəl dedikləri və qalmaqala səbəb olan "Göyərti qiymətinə toya gedirlər" sözlərindən bəhs ediblər: "Göyərti məsələsinə görə efirə çıxmaq istəmədim. Bir göyərtiyə görə insan bu qədər stress yaşayar? bütün müğənnilərə bunla bağlı sual verdilər. Hərə çıxdı bir söz dedi. Tükəndim, yoruldum.



# "Bircə yadından da çıxsaydıq" - Natavandan Elnarəyə

***Müğənni Elnarə Xəlilovanın Xalq artisti Röya Ayxan və müğənni Natavan Həbibi ilə bağlı dediyi "Həyat tərzlərimiz fərqlidir. Ona görə də uzaqlaşdım" sözləri mübahisəyə səbəb olub.***

Sənətçinin bu fikirləri sosial şəbəkədə müzakirə edilib. Bu söz-söhbətdən yorulduğunu vurğulayan Elnarə artıq adı çəkilən sənət adamları haqda ona sual ünvanlanmasına qadağa qoyub: "Bundan sonra sizə mənə Natavan Həbibi və Röya Ayxan haqqında sual verməyi qadağan edirəm. Elnarə yaradıcılığını sevənlər, hərəniz bir mahnımın adını yazın. O qədər... Sizi sevirəm".

Elnarənin bununla bağlı səhifələrdən birində yayımlanan açıqlamasına Natavan cavabsız qalmayıb. O, "Yadından da bircə çıxsaydıq... Artıq bezdirdiniz" şərhini yazıb.

Elnarənin sosial şəbəkədəki paylaşımına isə Natavan "Budurmu? Məhəbbət payım?" qısa sözlərini qeyd edib. Elnarə isə ona "Hər zaman yadımdasınız" reaksiyasını verib.

Elnarə daha sonra açıqlamalarının belə başlıqla yayımlanmasına etiraz edib. O bildirib ki, bu cür qalmaqallara görə verilişlərə getmir.

# "Oğlumla birlikdə intihar etmək istədim" - Könül Xasıyeva

***"Kazımla dənizə getdik, onu qoyub getməyəcəkdim. Çox şey var idi... Onda oğlumun 6-7 yaşı var idi. Dəmirin o tərəfinə keçdim, dənizə atılmaq istəyirdim. Şüurlu surətdə bunu etdim".***



Bu sözləri Xalq artisti Könül Xasıyeva "1 dəqiqə" proqramında deyib. Xanəndə oğlu Kazımla birlikdə intihar etmək istədiyini etiraf edib:

"Balamı qoyub gedə bilməzdim. Onunla birlikdə özümü öldürəcəkdim. Gördüm ki, mən ola-ola bu belədirsə, məndən sonra nə olacaq. 14 ildir yatmıram, səhərə kimi Kazımın yanında oyaq otururam. Çünki gecə neçə dəfə qalxır, oturur. Narahatdır, dərmanlar içsə belə... O, yuxudan oyanır, sonra mən yatıram".

# "Abır-həya əldən getdi" - Elza Seyidcahan

***"Bəzi şeylər intim qalmalıdır. Daha nə qaldı göstərməməli? Abır-həya əldən getdi".***

Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Elza Seyidcahan "Elgizlə izlə" verilişində deyib. Bloger cütlük Fərid və Nagehan Abdullayevanın övladının dünyaya gəlmə videosuna baxan sənətçi onları tənqid edib. Müğənni kişinin qadının doğuşunda iştirak etməsini pisləyib.

Seyidcahan daha sonra bir neçə gün əvvəl bığ taxaraq efirə çıxmasını tənqid edənlərə cavab verib:

"Bığ taxdım, hamı yazdı. Deyirəm, niyə təəccüblənirsiniz? İradla qəbul edildi. Bəzi kişilər öz borcları olan işi qadına yükləyiblər. Onda demirlər, qadınsan olmaz, kişi işidir".




## Gələn il uşaq pulu nə qədər olacaq? - Açıqlama

***Bir çox ölkədə 2022-ci ildən etibarən dövlət büdcəsinə uyğun olaraq uşaqlara görə verilən müavinətlər artırılacaq. Azərbaycanda isə bu problem hələ də aktual olaraq qalır.***

Bəs gələn il uşaq pulu nə qədər olacaq?

İqtisadçı-ekspert Natiq Cəfərli Bakıvaxtı.az-a verdiyi açıqlamada bildirib ki, Azərbaycanda uşaq pulu ilə bağlı məsələ fundamental olaraq həllini tapmır:

"Hökumətin rəsmiləri müxtəlif adlar altında ildə, təqribən, dörd yüz milyondan beş yüz milyona qədər vəsaitin sosial müdafiədə uşaqlara yönəldiyini söyləyirlər. Amma bunu doğuşla bağlı birdəfəlik müavinat və sosial müavinat alan çoxuşaqlı ailələrdə uşağın sayına görə deyirlər. Bu, pərakəndə şəkildə həyata keçirilir. İnsanlar üçün əsas məsələ uşaqlara görə hər ay konkret bir məbləğin ayrılmasıdır. Bu bir həll yolu ola bilərdi, amma, təəssüf ki, Azərbaycan hökuməti tərəfindən bu addımlar gecikdirilir. Axır-əvvəl mütləq belə bir sistemə keçmək lazım olacaq. Çünki artıq dünyada bu trend getdikcə daha çox yüksəlir. Uşaqların sağlamlığı, onların sosial məsələlərinin həlli artıq dünyada dövlət siyasətinin tərkib hissəsinə çevrilir. Buna görə Azərbaycanda da gec-tez buna bənzər addımların atılmasını görəcəyik. Amma, təəssüf ki, ən azından gələn ilin büdcəsində hələki bununla bağlı konkret hansısa addımların atılacağını söyləmək mümkün deyil".

## Lerikdə icra nümayəndəsinə cinayət işi açıldı

***Lerik rayon icra hakimiyyəti başçısının Osyodərə kənd dairəsi üzrə icra nümayəndəsinin digər vəzifəli şəxslərlə cinayət əlaqəsinə girərək bir neçə şəxsə "COVİD-19" əleyhinə vaksinasiya olunmaları ilə bağlı saxta sənədlər verməlәri ilə əlaqədar rayon prokurorluğunda araşdırma aparılmışdır.***

Lerik rayon prokurorluğundan Unikal.org-a verilən məlumata görə, araşdırmalarla Osyodərə kənd dairəsi üzrə icra nümayəndəsi Eminəli Həşimovun Xanəgah kənd tibb məntəqəsinin tibb qardaşı Elşən Fərzili və Lerik rayon mərkəzi xəstəxanasının operatoru Ayət Səmədov ilə cinayət əlaqəsinə girərək Bakı şəhərində yaşayan bir neçə şəxsin vaksin vurulmadıqları halda I və II doza vaksin olunmaları ilə bağlı saxta tibbi sənədlər tərtib etmələrinə əsaslı şübhələr müəyyən edildiyindən fakta görə Lerik rayon prokurorluğunda Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanmışdır.

Hazırda cinayət işi üzrə istintaq davam edir.

# Samir Şərifovun absurd bahalaşma açıqlamasının pərdəarxası

## Həftənin sualı: Maliyyə naziri, doğrudanmı, marketlərdə və mağazalardakı qiymətlərdən məlumatsızdır?

***Yola salmaq üzrə olduğumuz həftə Maliyyə naziri Samir Şərifov ölkədə qiymətlərin kəskin artmasına münasibət bildirərkən ilginc fikirlər səsləndirdi.***

Nazir kənd təsərrüfatı və ərzaq məhsulları ilə bağlı dövlət rüsumunun artırılmasına münasibət bildirərkən ərzaq məhsullarının rüsumunda artım olmadığını dedi. Sitat: "Hamıya bildirirəm ki, heç bir ərzaq məhsulunun rüsumunda bir qəpik də olsun artım yoxdur. Ərzaq məhsullarının qiymətinə təsir edəcək dövlət rüsumlarında artım yoxdur. Bu, tamamilə əsası olmayan uydurmalardır".

Beləliklə, cənab Şərifovun dediklərindən həm də bu nəticə hasil olur ki, o, xeyli vaxtdır cəmiyyəti ciddi narahat edən bahalaşma dalğasını inkar edir! Elə ona görə də nazirin sözləri ictimaiyyətdə birmənalı qarşılanmayıb, müzakirələrə, etirazlara səbəb olub. Xüsusilə də sosial şəbəkələrdəki təpkiləri ümumiləşdirsək, vətəndaşlar Samir müəllimi ya reallıqdan məlumatsız olmaqda, ya da reallığı gizlətməyə çalışmaqda günahlandırırlar.

Əslində rəsmi göstəricilər də Maliyyə nazirinin məlum açıqlamasına şübhə ilə yanaşmaq üçün əsas verir. Belə ki, Dövlət Statistika Komitəsinin bir müddət əvvəl yaydığı məlumata görə, 2021-ci ilin yanvar-iyul aylarında istehlak qiymətləri indeksi (inflyasiya göstəricisi) 2020-ci ilin yanvar-iyul aylarına nisbətən 4,5 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 5,1 faiz, qeyri-ərzaq məhsulları üzrə 4,1 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 3,9 faiz artıb.

Yəni rəsmi statistika da ölkədəki bahalaşma tendensiyasını gizlədə bilmir, bu o deməkdir ki, qiymətlərdəki artım məsələsi düşündüyümüzdən də ciddidir.



Belə olan təqdirdə Samir Şərifovun "Heç bir ərzaq məhsulunun rüsumunda bir qəpik də olsun artım yoxdur" deməsinə şübhə ilə yanaşmayasan, nə edəsən?!

Maliyyə nazirinin ifadə etdiyi fikir açıqdır: o ya söyləmək istəyir ki, ərzaq məhsullarının rüsumu artmayıbsa deməli bahalaşma da ola bilməz, ya da bu qənaətdədir ki, ərzaq məhsullarının rüsumu artırılmadığı halda bahalaşma baş verirsə, bu süni qiymət artımıdır.

Hər iki halda, təəssüf ki, nazir yanılır. Birinci halda ona görə yanılır ki, bahalaşma real faktdır və az əvvəl də vurğuladığımız kimi, bunu hətta rəsmi statistika da gizləyə bilmir. İkinci halda ona görə yanılır ki, artıq süni qiymət artımı məsələsi inandırıcılığını xeyli dərəcədə itirib. Niyə? Adi bir nümunə: son aylarda Azərbaycanda benzinin, işığın, qazın qiyməti qalxıb. Yaxşı, doğrudanmı, Şərifov hesab edir ki, həmin bahalaşma qərarları ərzaq məhsullarının qiymətinə təsirsiz ötüşəcəkdi?

Axı hətta heç bir dərin iqtisadi bilgisi olmayan sıravi vətəndaş da bilir ki, benzinin, qazın, işığın qiymətindəki artım sadəcə adıçəkilən məhsulların bahalaşması kimi dəyərləndirmək doğru deyil. Çünki bu qiymət artımları ərzaqdan tutmuş qeyri-ərzağa qədər, bütün sahələrə təsir edəcək, onları da bahalaşdıracaq, nəticədə insanların həyat şəraitinə mənfi təsir göstərəcək.

Lap deputat Aqil Abbasın haqlı olaraq qeyd etdiyi kimi: "Ərzaq məhsullarının qiymətlərində artımlar var, Samir Şərifov demir, kim deyir desin ki, artım yoxdur, bu, doğru deyil... Benzin bahalaşan zaman hər şey bahalaşmalıdır. Qaz, işıq bahalaşırsa, digər məhsullar da bahalaşmalıdır. Bunlar paraleldir!"

Ancaq Maliyyə naziri bu bəsit gerçəkliyi ya qəbul etmək istəmir, ya da dilə gətirmək... Bu isə ortadakı həqiqəti dəyişmir: Azərbaycanda ərzaq məhsulları az qala günbəgün bahalaşır, üç gün öncə aldığın bir məhsulu üç gün sonra başqa, daha yüksək qiymətə alırsan.

Əgər S.Şərifov bu reallıqdan doğrudan da xəbərsizdirsə, biz ona bir ay boyunca həftədə bir dəfə bazarlara, marketlərə baş çəkməyi, evə alış-verişi özünün etməsini məsləhətə görürük.

Əminik ki, belə olan təqdirdə Samir müəllim günlərdir cəmiyyətdə müzakirə predmeti olan, narazılıq doğuran sözlərində nə qədər yanıldığının fərqinə varacaq!..

***Sənan Mirzə***

# Məcburi köçkünlərə dəstək tədbiri keçirildi

***Azərbaycan Respublikası Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Koreya Respublikasının ölkəmizdəki səfirliyi "Qobu Park" yaşayış kompleksində yerləşən "Xarıbülbül" təlim və istehsal mərkəzində sosial dəstək tədbiri keçirib.***

Unikal.org xəbər verir ki, tədbirdə çıxış edən Dövlət Komitəsi sədrinin müşaviri Nəsimi Nərimanov bildirib ki, məcburi köçkünlərin problemlərinin həlli Prezident İlham Əliyevin diqqət mərkəzindədir və hazırda onların öz doğma yurdlarına qayıdışına hazırlıq tədbirləri həyata keçirilir.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva məcburi köçkünlərə xüsusi qayğı göstərir, onlarla görüşlər keçirir, arzu və istəklərini şəxsən dinləyir, mənzil-məişət, təhsil, sağlamlıq məsələlərini həll edir. Ölkəmizdə məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün dövlət tədbirlərinin görülməsi ilə yanaşı, son illər bu sahəyə özəl sektor da töhfələr verib. Qonaqların diqqətinə çatdırılıb ki, tədbirin keçirildiyi "Qobu park" yaşayış kompleksi özəl sektor tərəfindən, dövlət vəsaiti istifadə olunmadan tikilib. Eyni zamanda bildirilib ki, "Xarı bülbül" kompleks ərazisində yaşayan məcburi köçkünlərin məşğulluğuna dəstək məqsədi ilə yaradılıb. Burada məcburi köçkün şəhid və müharibə veteranlarının ailələri çalışır. Koreya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Op məcburi köçkünlərlə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirləri yüksək qiymətləndirib. Qeyd edib ki, gələcəkdə səfirlik tərəfindən məcburi köçkünlərlə bağlı icra edilən tədbirlər genişləndiriləcək.



Qonaqlar "Koreya-Azərbaycan" dostluq münasibətlərini əks etdirən sərgidə əl işlərindən ibarət rəsmlərə baxıb. Müsabiqədə iştirak edən məktəblilərə hədiyyə və sertifikatlar təqdim edilib. Daha sonra tədbir iştirakçıları mərkəzdə hazırlanan zərgərlik əşyaları və xalçalarla tanış olublar, burada çalışan məcburi köçkünlərlə söhbət ediblər.

Səfirlik tərəfindən "Xarıbülbül"ə ip, əriş-arğac və bir sıra texniki avadanlıqlar hədiyyə edilib.

# Rusiya sülhməramlılarından narazılıq böyüyür

## İki ölkə arasında sərhəd mübahisələrinin davam etməsi Moskva üçün bölgədə yeni imkanlar aça bilər

***Xəbər verdiyimiz kimi, 10 noyabr bəyanatından - Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli bəyanatla Qarabağda sülhməramlıların yerləşdirilməsindən bir il ötür.***

Bu müddət ərzində rus sülhməramlılarının obyektivlikdən kənar olan addımlarının dəfələrlə şahidi olduq. Onların bu fəaliyyətinə istər rəsmi Bakıdan, istərsə də cəmiyyət tərəfindən lazımi reaksiyalar verilib. Lakin buna baxmayaraq, Rusiya sülhməramlıları bütün fəaliyyətləri dönəmində erməni təəssübkeşliyindən əl çəkə bilməyiblər.

Politoloq Ərəstun Oruclu 3 ölkə arasında imzalanmış bəyanatın ildönümü ilə bağlı fikirlərini bölüşüb. O bildirib ki, "Rusiya "sülhməramlılarını" Azərbaycan ərazisinə gətirən və Ermənistanı mütləq məğlubiyyətdən qurtaran 10 noyabr 2020-ci il tarixli üçtərəfli videoformat görüşünün ildönümü gününə nəzərdə tutulan eyni formatda növbəti görüş Kremlin bütün səylərinə rəğmən baş tutmadı. Onun sözlərinə görə, rəsmi məlumatlarda bunun əsasən Ermənistanın baş naziri Nikol Paşinyanın üzündən baş tutmaması bildirilir: "Görünür, görüşün alınmamasının səbəbkarı kimi Ermənistanın baş nazirinin olması onun nəzərdə tutulan görüşə 2 gün qalmış verdiyi açıqlama ilə əsaslandırılır. Paşinyan isə mümkün görüşlə bağlı bunları demişdi: "Biz görüşə qarşı deyilik, amma vacibdir ki, belə görüşün konteksti, simvolikası, potensial nəticəsi olsun. Biz nəticəsi olan görüşdən imtina etməyəcəyik, amma belə görüşlərin özü məqsəd ola bilməz. 9 noyabr görüşü barədə razılaşma yoxdur."Bunun ardınca Kreml sözçüsü Dmitriy Peskov bəyan etdi ki, belə görüşün nə zaman keçiriləcəyi barədə hələlik anlaşma və razılaşma yoxdur, amma (bu istiqamətdə) iş davam etdirilir. Xatırladım ki, Peskovun mümkün görüş barədə ilkin bəyanatı sonuncudan daha konkret və daha optimist səslənmişdi. Bəs görüşün alınmamasının səbəb(lər)i nədir? Çox güman ki, səbəblər Moskvanın ondan əldə etmək istədiyi dividentlərdən və bunun bir çox maraqlara zidd olmasından qaynaqlanır. Bu haqda isə Rusiya mediası açıq yazır. Buna inansaq, Moskvanın tərəflərə iki təklifi var:

1. Sərhədlərin demarkasiyası və delimitasiyası;

2. Sülh müqaviləsinin imzalanması.

Aydındır ki, ikinci bənd üzrə ən azı yaxın illərdə nəticə olacağını gözləmək mümkün deyil, çünki bu məsələdə Azərbaycanla Ermənistanın bir-birinə diametral zidd mövqeyi və qarşılıqlı ittihamları var. Məsələn, İrəvanın erməni əhalinin Hadruta və Şuşaya qaytarılması tələbi Azərbaycan üçün heç müzakirə predmeti də deyil.

Belə ziddiyyətlər yetərincədir ki, onların da aradan qaldırılması mümkün olmadığından sülh müqaviləsinin yaxın illərdə imzalanması tamamilə ümidsiz görünür. Şübhəsiz ki, Moskvada da bunu yaxşı anlayırlar və əslində Rusiyanın məqsədi heç belə müqavilənin imzalanması da deyil.

Heç kəsə sirr deyil ki, Rusiyanın Qafqaza gəlişindən bu günədək azərbaycan-erməni münasibətləri daim Moskvanın maraqlarına xidmət edib və bu gün də həmin yolla davam etməkdədir. Odur ki, indiki mərhələdə sülh müqaviləsinin imzalanması heç bir halda Rusiyanın marağında deyil, çünki bu halda ölkələr arasında birbaşa əlaqələrin qurulması üçün ciddi zəmin yaradılmış olardı.

Görünür, elə bu səbəbdən də Ermənistandakı Rusiyaya bağlı müxalifət Paşinyanı daim sülh müqaviləsilə təhdid etməkdədir.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının Rusiya üçün əlverişli və ya önəmli olmaması ilə razılaşsaq, qalır birinci məsələ: sərhədlərin demarkasiyası və delimitasiyası.

Burada da tərəflər arasında ciddi ziddiyyətlər olmasına rəğmən məhz bu bənd üzrə hansısa anlaşmanın olması Moskvanın maraqlarına cavab verir.

Lakin bu məsələdə də incə məqamlar var. Məlumdur ki, SSRİ-nin 30 il əvvəl dağılmasına baxmayaraq postsovet ölkələrinin mütləq əksəriyyəti arasında sərhəd mübahisələri hələ də öz həllini tapa bilmir.

Elə Azərbaycanla Ermənistan arasında da həmçinin bu məsələyə dair xeyli ziddiyyətlər var. Amma oxşar cəhət də var ki, bu da sülh müqaviləsində olduğu kimi, sərhəd məsələsindəki mübahisəli məqamların Moskvanın əlinə oynamasıdır. Belə ki, iki ölkə arasında sərhəd mübahisələrinin davam etməsi Moskva üçün bölgədə yeni imkanlar aça bilər.

Bu, ilk növbədə sərhəd mübahisələri kəskin olan ərazilərdə qarşıdurmadan qaçmaq məqsədilə həmin ərazilərdə sərhədlərə nəzarətin müvəqqəti olaraq Rusiya "sülhməramlılarının" öhdəsinə verilməsi ola bilər. Bunun üçün də bölgəyə əlavə Rusiya hərbi kontingentinin yerləşdirilməsinə ehtiyac yaranardı.

Yuxarıda qeyd etdiyim kimi, sərhəd mübahisələrinin onilliklər boyu davam etməsi təcrübəsini nəzərə aldıqda mübahisəli ərazilərə yerləşdiriləcək Rusiya hərbi kontingentinin onilliklər boyu bölgədə qalması və iki ölkə arasındakı münasibətlərə əhəmiyyətli dərəcədə təsir etməsi demək olardı".

Maraqlıdır, ümumiyyətlə, sülhməramlıların Qarabağa yerləşdirilməsinin səbəbi nədir, onların missiyalarından xəbərdarıqmı? Missiyalar bir-birindən fərqlənsə də, hər bir əməliyyata aid olan ümumi cəhətlər mövcuddur:

- Sülhməramlılar münaqişə tərəflərinin hər ikisinin razılığı əsasında müvafiq bölgəyə yerləşdirilir;
- Sülhməramlılar qərəzsiz və neytral olmalıdır;
- Sülhməramlılar yalnız mandatlarının hüdudları çərçivəsində və özünümüdafiə məqsədilə silah istifadə edə bilərlər;
- Əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə dəstək göstərilməsi missiyasının başlıca vəzifəsidir;
- Keçid dövrünün çətinliklərinin aradan qaldırılmasına və tərəflər arasında əlaqə üçün yerli qarşılıqlı işlək mexanizmlərin yaradılmasına dəstək göstərilir;

Keçən il noyabrın 10-dan Qarabağa yerləşdirilən sülhməramlı kontingent Rusiya silahlı qüvvələrinin 15-ci əlahiddə sülhməramlı motoatıcı briqadasının hərbçiləridir. Həmin briqada Rusiyada BMT mandatı altında sülhməramlı missiyalarda iştirak üçün xüsusi yaradılmış yeganə heyətdir.

Sülhməramlı missiya Qarabağa dəqiq və konkret məqsədlə yerləşdirilib. Bu da dövlət başçılarının birgə bəyanatında nəzərdə tutulmuş vəzifələrin icrasına dəstək göstərməkdir.

Bəs bir il ərzində rus sülhməramlıları sadalanan missiyaları yerinə yetirə bildilərmi?

Hərbi ekspert Ədalət Verdiyev deyib ki, bir il ərzində sülhməramlıların Azərbaycanda fəaliyyəti bir çox mənfi və müsbət cəhətlərlə yadda qalıb. Onun fikrincə, birgə bəyanatdan keçən ilk aylar ərzində Azərbaycanı qane edəcək bir neçə addımlara imza atdılar: "Məsələn, üç rayonun, o cümlədən Qubadlı və Zəngilanın xeyli kəndinin boşaldılıb Azərbaycana qaytarılması və s. Lakin sonrakı dövrlərdə sülhməramlı kontingetin separatçı rejimlə daha sıx əlaqədə olduğunu müşahidə etdik".



Onun sözlərinə görə, Qarabağ ərazisinə erməni silahlılarının buraxılması da Azərbaycanı qane etməyən fəaliyyətlər sırasındadır: "Azərbaycan tərəfinin razılığı olmadan Ermənistan rəsmilərinin və digər ölkə nümayəndələrinin buraxılması da Azərbaycanı narahat edən faktorlardan biridir.

Digər tərəfdən, Azərbaycanı qane etməyən əsas fəaliyyətlərdən biri də Qarabağ ərazisində yerləşən erməni silahlılarının bu günə qədər oradan çıxarılmamasıdır. Hələ də onların ağır texnikaları Qarabağda qalır. Onların yeni mövqelər inşa etməsi də faktdır. Hesab edirəm ki, sülhməramlıların fəaliyyətləri ilk bir ayı çıxmaq şərti ilə qalan dövrlərdə heç də Azərbaycanı qane etmir".

Ekspert onu da qeyd edib ki, sülhməramlılar iki ölkə arasında əlaqələrin normallaşmasına dair heç bir iş görməyib. "Əlaqələrin normallaşmasına gəldikdə isə sülhməramlılar bu mövzuda özlərinə aid olmayan funksiyaları yerinə yetirməklə qətiyyətlə azərbaycanlı köçkünlərin Qarabağ ərazisinə qaytarılması ilə bağlı heç bir addım atmayıb. Yalnız ermənilərin Qarabağa qaytarılmasını təmin etdilər. Amma yenidən həmin əhalinin bir hissəsi Qarabağı tərk etdi. Ümumilikdə isə onların fəaliyyəti Azərbaycan üçün mənfidir".

***Z.Məmmədli***

# Bu tələbələrin təqaüdləri artırıldı - Sərəncam



***Prezident İlham Əliyev "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.***

Unikal.org-un məlumatına görə, sərəncama "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamında aşağıdakı dəyişikliklər edilib:

"1.4. Peşə təhsili müəssisələrində:

akademik göstəriciləri "5" (yüksək texniki peşə təhsili səviyyəsində 91 - 100 bal) olan tələbələrə - 75 manat

akademik göstəriciləri "4" və "5" (yüksək texniki peşə təhsili səviyyəsində 71 - 100 bal) olan tələbələrə - 60 manat

akademik göstəriciləri "3" - "5" (yüksək texniki peşə təhsili səviyyəsində 51 - 100 bal) olan tələbələrə - 50 manat.";

1.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Dövlət sifarişi, dövlət hesabına və ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, dövlət büdcəsinin vəsaiti hesabına təqaüdlər Azərbaycan Respublikasının ali təhsil və orta ixtisas təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində əyani təhsil alan tələbələrə, ümumi orta müvəffəqiyyət göstəricisi nəzərə alınmaqla, fənlər üzrə akademik nailiyyətlərinə görə, peşə təhsili müəssisələrində əyani təhsil alan tələbələrə isə aralıq qiymətləndirmə nəticələrinə görə bu Sərəncamın 1.2-1.4-cü bəndləri ilə müəyyən edilmiş məbləğlərdə ödənilsin.";

1.3. 3-cü hissədə "və 1.4-cü bəndləri" sözləri "bəndi" sözü ilə əvəz edilsin və həmin hissədən "və peşə təhsili müəssisələrinin tələbələrinə" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Şəhidlərin ailə üzvlərinin kredit borcları silinsin! - TƏKLİF



***"Bəzi hallarda cəmiyyətdə Birinci Qarabağ müharibəsində şəhid olanların ailə üzvləri ilə müqayisədə İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələrinə daha çox diqqətin göstərilməsi ilə bağlı fikirlər yayılır. Hesab edirəm ki, bu iddiaların heç bir əsası yoxdur. Şəhid ailələri arasında fərq qoyulmur".***

Unikal.org-un xəbərinə görə, bunu parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev noyabrın 11-də Milli Məclisin Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı deyib.

Komitə sədri bildirib ki, II Qarabağ müharibəsi şəhidlərinin kredit borcları ödənilib: "Təklif edirəm ki, I Qarabağ müharibəsi şəhidlərinin ailə üzvlərinin də kredit borclarının silinməsi və ya onlara hər hansı bir güzəştlərin edilməsi ilə bağlı məsələyə baxaq".

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Peyvənd olunanların sayı AÇIQLANDI

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 42 265 vaksin vurulub.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 5 988, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 11 981, "buster" doza üzrə vaksinasiya olunanların sayı isə 24 296 nəfərdir.

# İlham Əliyev BP qrupunun baş icraçı direktorunu qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib.***

BP qrupunun baş icraçı direktoru Bernard Luni son görüşdən keçən dövr ərzində Azərbaycanın əldə etdiyi uğurlar münasibətilə dövlətimizin başçısının təbrik etdi. Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi ilə bağlı əldə edilmiş birgə uğurlar münasibətilə Bernard Lunini təbrik etdi və bu layihənin Azərbaycanla BP şirkətinin birgə səyləri nəticəsində əldə olunduğunu bir daha vurğuladı.

Bildirildi ki, BP şirkəti Azərbaycanla, o cümlədən SOCAR şirkəti ilə dünyada ən güclü tərəfdaşlıq əlaqələrinə malikdir. Öz növbəsində Azərbaycanın da ən möhkəm tərəfdaşlığı BP şirkəti ilədir. Qeyd edildi ki, ölkəmizin bu şirkətlə qarşılıqlı inama əsaslanan əməkdaşlığının zəngin tarixi və parlaq gələcəyi var.



Söhbət zamanı BP şirkətinin bərpa olunan enerjiyə göstərdiyi marağın Azərbaycanın enerji strategiyasına uyğun gəldiyi qeyd edildi, bu sahədə BP ilə əməkdaşlığın genişlənməsi məsələlərinin nəzərdən keçirildiyi bildirildi. BP şirkətinin işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji ilə bağlı planlarının əhəmiyyətinə toxunularaq bunun həmin ərazilərdə ölkəmizin bəyan etdiyi kimi, yaşıl enerji ərazisinə transformasiya etmək işinə xidmət edəcəyinə ümidvarlıq ifadə olundu. Qeyd edildi ki, bu işlər böyük potensiala malikdir, xüsusilə nəzərə alınsa ki, Azərbaycan qonşu ölkələrlə şaxələndirilmiş enerji bağlantılarına malikdir və ölkəmizdə tələbatdan artıq enerji istehsal olunur.

Bernard Luni xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanın faydası naminə korbohidrogen ehtiyatlarının inkişafı ilə bağlı təşəbbüslərini xatırladaraq, hazırda Prezident İlham Əliyevin enerji keçidi məsələsi ilə bağlı baxışlarına görə təbriklərini çatdırdı.

BP qrupunun baş icraçı direktoru Bernard Luni Azərbaycanın ətraf mühitin mühafizəsi sahəsində səylərini yüksək qiymətləndirərək ölkəmizin bu istiqamətdə dünyanın aparıcı dövlətləri sırasında olduğunu dedi və bildirdi ki, Azərbaycanda ətraf mühitin standart və qaydalarının qorunması bir çox inkişaf etmiş ölkələrdən daha güclüdür. Öz növbəsində, Prezident İlham Əliyev Azərbaycanda ətraf mühitin mühafizəsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdən danışdı.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.

# Ceyhun Bayramovdan Zəngəzur dəhlizi ilə bağlı açıqlama

***"Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli birgə bəyanatı xüsusilə regionda kommunikasiya xətlərinin açılması ilə əlaqədar olan 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatı ilə daha da inkişaf etdirilib, regionda nəqliyyat kommunikasiya xətlərinin açılması üçün konkret istiqamətlərdə fəaliyyətə başlanılıb".***

Unikal.org xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Türk Şurasının Xarici İşlər Nazirləri Şurasının İstanbulda keçirilən səkkizinci iclasında çıxışı zamanı deyib.

"Nəqliyyat, kommunikasiya, infrastruktur layihələri iştirakçı dövlətlərin hər birinin maraqlarına uyğun gəlir. Əminəm ki, bu, regionda sülh, təhlükəsizlik və inkişafa töhfə verəcək və bütün türk dünyası, eyni zamanda, digər ölkələr üçün də əlavə imkanlar yaradacaqdır. Regionda yeni kommunikasiya və nəqliyyat dəhlizlərinin, o cümlədən çox önəmli Zəngəzur dəhlizinin, yaradılması əməkdaşlığı daha da gücləndirəcək, habelə ticarət



dövriyyəsinin artmasına xidmət edəcəkdir. Ümid edirik ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər", - nazir vurğulayıb.

# "10 minədək şəhid ailəsi və qazi işə cəlb edilib"- Sahil Babayev

***"Bu günə qədər 10 minədək şəhid ailəsi və qazi işə, özünəməşğulluq proqramlarına cəlb edilib".***

"Unikal" xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev noyabrın 11-də Milli Məclisin Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional



məsələlər, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı deyib.

"Bu istiqamətdə silsilə olaraq işlər davam etdirilməlidir. Peşə məktəblərinin sayı artırılmalıdır", - nazir vurğulayıb.

# Son sutkada 30 nəfər koronavirusdan öldü

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 774 yeni yoluxma faktı qeydə alınıb, 2 365 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 30 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 554 096 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 516 013 nəfər müalicə olunaraq sağalıb, 7 372 nəfər vəfat edib, aktiv xəstə sayı 30711 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 350, ötən müddət ərzində isə ümumilikdə 5 321 217 test aparılıb.

# Kreml Azərbaycanın təhlükəsizlik maraqları ilə hesablaşmır

***Rusiya 10 noyabr tarixinə özünəməxsus şəkildə hazırlaşıb və bu "hazırlıqlar" Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlib.***

"Unikal" xəbər verir ki, bunu siyasi şərhçi Elxan Şahinoğlu Xankəndidə Rusiya sülhməramlı qüvvələrinə abidə qoyulmasına münasibət bildirərkən deyib.

"Birincisi, Qarabağda Rusiya hərbişlərinin düşərgəsi ərazisində "Rusiya şöhrət xiyabanı" açılıb. Xiyabanda Rusiyanın tarixi və mədəniyyətinin 10 tanınmış xadiminin - Aleksandr Nevski, Denis Davıdov, Mixail Lermontov, Qavril Derjavin, Aleksandr Puşkin, Nikolay Karamzin, Lev Tolstoy, Anton Çexov, Vasili Şukşin və Mixail Şoloxovun büstləri qoyulub.

İkincisi, işğal altındakı Xocalıda kilsə inşa ediblər.

Üçüncüsü, rusiyalı sülhməramlıların keçmiş komandanı Rüstəm Muradov yenə Qarabağa gələrək, Moskva bəyanatının qəbul edilməsinin 1 illiyi ilə bağlı medallar paylayıb.

Azərbaycanda rus ədiblərinə, Lermontovdan tutmuş Puşkinə qədər böyük hörmət var, əsərləri məktəblərdə tədris olunur. Bakının mərkəzi bağlarının birində Puşkinə heykəl də qoyulub. Ancaq Rusiya hərbçilərinə kim səlahiyyət verib ki, onlar Azərbaycanın işğal altındakı torpaqlarında büstlər qoya bilərlər?".

Politoloq xatırladıb ki, 1992-ci ildə erməni separatçılarının Rusiyanın 366-cı alayı ilə birgə Xocalıda törətdikləri soyqırımı ərazisində başqa heykəl də qoyulub - Rusiyalı əsgər ona gül verən erməni qızına minnətdarlığını bildirir.

"Xocalıda kilsə inşa edilməlidirsə, buna da qərarı Moskvada deyil, Bakıda verməlidirlər. Rüstəm Muradova gəldikdə, bu hərbçi işğal altındakı torpaqlara səfərlərinə ara vermir. Rusiya Müdafiə Nazirliyi bu hərbçini başqa vəzifəyə təyin etməsinə baxmayaraq, onu tez-tez Qarabağa göndərir. Qarabağda Rusiya sülhməramlılarının başqa komandanı olduğu halda Rüstəm Muradovun tez-tez Qarabağa ezam olunması bir başqa müəammadır".

E.Şahinoğlunun sözlərinə görə, Qarabağda kilsənin tikintisi, abidələrin qoyulması birbaşa Moskvanın təlimatıyla həyata keçirilir.

"Əgər Rusiya Müdafiə Nazirliyi Qarabağdakı hərbçilərinin fəaliyyəti - inşaat çalışmaları, kilsə və abidələrin qoyulması barədə Azərbaycan Müdafiə Nazirliyini əvvəlcədən məlumatlandırmırsa, demək Moskva Bakı ilə hesablaşmır".

Siyasi şərhçi bildirib ki, Rusiya Müdafiə Nazirliyi Qarabağdakı silahlı insidentlər barədə də yaydığı açıqlamalarda ermənilərin "məntiqinə" əsaslanır.

"Şuşada 8 noyabrda Zəfər bayramının keçiriləcəyi və həmin tədbirdə dövlət başçısı İlham Əliyevin xarici qonaqlarla birgə iştirakı əvvəlcədən bəlliydi. Rusiya hərbçilərinin Qarabağdakı komandanı bunu bilərkən ermənilərin Şuşa yaxınlığında "su borularının dəyişdirilməsi" adı altında şübhəli çalışmalarını əngəlləyə və ya başqa tarixdə keçirilməsini təmin edə bilməzdimi? İnsident baş verdi və Rusiya ermənilərin itki verdiyi xəbərini yayımladı".



Ekspert deyib ki, Azərbaycan rəsmilərinin və dövlət strukturlarının açıqlamalarında doğru olaraq "müvəqqəti bölgədə yerləşdirilmiş sülhməramlı qüvvələr" ifadəsi yazılır.

"Ancaq bu azdır. "Müvəqqəti" dediymiz rusiyalı hərbçilər hələ 4 il bölgədə qalacaqlar və bu müddətdə gördüklərimizdən başqa əlavə təxribatların da şahidi ola bilərik. Bu mövzularda Moskva ilə müzakirələr aparılmalıdır, Azərbaycan Müdafiə Nazirliyi Qarabağda rusiyalı hərbçilərin iştirakı ilə baş verən və cəmiyyətimizi narahat edən hər məsələylə bağlı Rusiya Müdafiə Nazirliyindən hesabat istəməlidir. Rusiya prezidenti Vladimir Putin bircə dəfə müdafiə naziri Sergey Şoyquya "Qarabağdakı planlarınızı və çalışmalarınızı Bakı ilə də bölüşün" desə, məsələ böyük ölçüdə həll olunar. Putinin Şoyquya belə bir təlimat verməməsi Kremlin Azərbaycanın təhlükəsizlik maraqları ilə hesablaşmadığı anlamına gəlir".

***Z.Məmmədli***

# "Xankəndi və Xocalıya pul ayrılmalıdır" - Zahid Oruc



***Gürcüstanda sahə inspektorları 400-500 dollar, patrul xidmətinin əməkdaşları isə 1 000 dollar civarında maaş alır.***

Bunu Milli Məclisin komitələrinin birgə iclasında parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib.

"Mən düşünürəm ki, ölkəmizdə də polis əməkdaşlarının maaşlarına yenidən baxılmalıdır", - deyə o əlavə edib.

Deputat gələn ilin büdcəsində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi ərazilərə, o cümlədən Xankəndi və Xocalıya maliyyə vəsaitinin ayrılmasının vacibliyini qeyd edib.

"Xankəndiyə qaz niyə Ermənistandan getməlidir? Biz orada yaşayan erməni əhalinin Azərbaycan cəmiyyətinə inteqrasiyası üzərində işləyirik. Belə olan təqdirdə həmin ərazilər üçün də maliyyə ayrılmasına ehtiyac var".

O həmçinin bildirib ki, Azərbaycan vətəndaşları gələn ilin dövlət büdcəsinin təqdimatından sonra enerjinin, kommunal tariflərin və manatın kursunun dəyişməyəcəyi barədə zəmanət verilməsini gözləyir.

# "YAŞAT" "Zəfər" Yarmarkasından toplanan vəsaiti açıqladı

***Dənizkənarı Bulvar ərazisində təşkil olunan "YAŞAT" Fondunun "Zəfər" Yarmarkası başa çatıb.***

Unikal.org xəbər verir ki, ümumilikdə 12 gün ərzində Yarmarka müddətində toplanmış 64 558.58 AZN (altmış dörd min beş yüz əlli səkkiz manat əlli səkkiz qəpik) vəsait Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananlara və şəhid ailələrinə dəstək məqsədi ilə "YAŞAT" Fonduna ianə edilib.

Vətən müharibəsində qazanılan qələbəyə həsr olunan və 29 oktyabr - 9 noyabr tarixini əhatə edən Yarmarka "Qarabağ qəhrəmanlarının izi ilə" mövzusunda baş tutub.

Yarmarkanın təşkilatçıları "YAŞAT" Fondu, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Dənizkənarı Bulvar İdarəsi və Azərbaycan Peyntbol Federasiyası olub.

Müxtəlif şirkətlər tərəfindən qida məhsullarının, zəfər simvolikasına aid müxtəlif suvenirlərin, kitabların və digər məhsulların satışı gerçəkləşib. Eyni zamanda Vətən müharibəsi ilə bağlı silah, geyim və texnikaların nümayişi üçün zona, hərbi oyun meydançaları quraşdırılıb. Bura gələn vətəndaşlar üçün, həmçinin hərbi vətənpərvərlik yarışları, uşaqlar üçün əyləncəli tədbirlər təşkil edilib.

Yarmarkanın hər bir günündə tanınmış mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə konsert proqramları təşkil edilib.

***Anar Kəlbiyev***

# Prokurorluq "Emin 444"ün qətli ilə bağlı məhkəmə qərarından apellyasiya protesti verdi

***"Bəzi kütləvi informasiya vasitələri və sosial media səhifələrində Səfərov Emin Ehtiram oğlunu qəsdən öldürməkdə təqsirləndirilən şəxslərdən biri - Yusifov Zaur Əli oğlunun barəsində Bakı Ağır Cinayətlər Məhkəməsində bəraət verilməsi ilə bağlı informasiyalar yayılıb".***

Bu barədə "Unikal"a Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 08 oktyabr tarixli hökmü ilə təqsirləndirilən şəxs - Zaur Yusifova Cinayət Məcəlləsinin (CM) 120.2.1 və 120.2.4-cü (bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən, xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) maddələri ilə təqsirliliyinin



sübuta yetirilməməsi əsası ilə bəraət verilmiş, digər təqsirləndirilən şəxs - Həsən Tağıyev isə CM-in 120.2.4 və 228.4-cü (qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə) maddələri ilə təqsirli bilinib qəti olaraq 18 il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilib.

Bakı Ağır Cinayətlər Məhkəməsinin gəldiyi nəticənin işin faktiki hallarına uyğun olmaması və cinayət qanununun normasının düzgün tətbiq edilməməsi əsası ilə dövlət ittihamçısı tərəfindən həmin hökmdən Bakı Apellyasiya Məhkəməsinə apellyasiya protesti verilib.

Qeyd edək ki, qətlə yetirilən Emin Səfərov kriminal aləmdə "Emin 444" kimi tanınır.

# Veteranlara verilən müavinətin qaldırılması təklif olundu

***Azərbaycanda müharibə veteranlarına verilən müavinətin artırılması təklif edilib.***

Uniikal.org-un xəbərinə görə, bunu Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov noyabrın 11-də Milli Məclisin Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı deyib.

O bildirib ki, hazırda müharibə veteranlarına 80 manat məbləğində müavinət verilir: "Təklif edirəm ki, həmin müavinət 130 manata qaldırılsın".

# “2022-ci ildə irimiqyaslı sosial paketin təqdim olunması nəzərdə tutulur”

## Vüqar Bayramov: “Sosial paket çərçivəsində əmək haqqı və təqaüdlərdə artımın 20-40 faiz intervalında olacağı gözlənilir”

***Məlum olduğu kimi, 2022-ci ilin büdcə layihəsi Milli Məclisdə müzakirə olunur. Gələn ilin büdcəsi müstəqillik dövrümüzdə ən böyük büdcə oluğu üçün cəmiyyətdə müxtəlif gözləntilər var. ”Unikal” qəzetinə müsahibə verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramovla söhbətimiz də elə bu mövzu ətrafında oldu:***

***-Artıq növbəti ilin büdcə müzakirələri başlayıb. Ötən gün də sizin komitədə nazirlərin iştirakı ilə ilk iclas keçirildi. 2022-ci ilin büdcəsini necə qiymətləndirərdiz? Bu ilin büdcəsindən nə ilə fərqlənir?***

-2022-ci ilin dövlət büdcəsi 2021-ci ilin dövlət büdcəsi ilə müqayisədə gəlir və xərclərin çoxluğu ilə fərqlənir. Nəzərə alsaq ki, növbəti ilin dövlət büdcəsində dövlət büdcəsinin xərcləri müstəqillik dövründə manat ifadəsində ən böyük xərclərdir. 2021-ci ilin yekunlaşmaqda olan nəticələri, eyni zamanda bu il ərzində neft və qeyri-neft sektorunun büdcə daxilolmaları , eləcə də valyuta gəlirlərinin payında proqnozlaşdırılandan daha çox artımların olması da, 2022-ci il üçün daha yüksək proqnozların verilməsinə şərait yaratdı.

Millət vəkili olaraq bəzi məsələlərin növbəti ilin büdcəsində nəzərə alınmasını təklif edirik. Növbəti ildə təhsil və elm xərclərində artımların olmasına baxmayaraq, elm xərclərinin dövlət büdcəsində ümumi payı 0,7 faiz, Ümumi Daxili Məhsuldakı (ÜDM) payı isə 0.2 faiz olacaq. Təklifimiz ondan ibarətdir ki, elm xərclərinin artırılması, xüsusilə də ÜDM-də payının məqbul həddə çatdırılması üçün daha çox vəsaitin ayrılmasına ehtiyac var. Eləcə də büdcə kəsirinin qeyri-neft sektorunda payı yüksək olaraq qalır. Növbəti il üçün 3 milyard 63 milyon manat büdcə kəsiri proqnozlaşdırılır. Bu, 12 milyard 126 milyon manatlıq qeyri-neft gəlirlərimizin dörddə birini təşkil edir. Bu məsələnin baxılması, xüsusən də büdcə kəsirinin tənzimlənməsi vacib məqamlardan biridir. Növbəti ilin proqnozuna əsasən, Dövlət Neft Fondundan transferlər 6,6 faiz daha çox 14 milyard 106 milyon manat olacaq. Xüsusən fiskal qaydaların tətbiqinin prioritet olduğunu nəzərə alsaq, bunun da tənzimlənməsi və bütövlükdə Dövlət Neft Fondundan asılılığın minimumlaşdırılması çox vacibdir. Əvvəlki illərdə təsdiq olunmuş və tam maliyyələşdirilməmiş layihələrin də həcmi kifayət qədər böyükdür. Növbəti 3 ildə təxminən keçid layihələri 7 milyardlıq bir vəsait tələb edir. Bu istiqamətdə təklifimiz ondan ibarətdir ki, keçid layihələrinin maliyyələşdirilməsinin mexanizminin hazırlanması və onların daha qısa müddətdə maliyyələşdirilməsinə nail olunması vacibdir.

***-Maliyyə naziri Samir Şərifov ötən gün sizin komitədə çıxışı zamanı bildirib ki, ”Heç bir ərzaq məhsulunun rüsumunda bir qəpik də olsun artım yoxdur. Ərzaq məhsullarının qiymətinə təsir edəcək dövlət rüsumlarında artım yoxdur. Bu, tamamilə əsası olmayan uydurmalardır”. Amma ərzaq məhsullarının qiyməti demək olar ki, hər gün artır. Elə isə bu qiymət artımları nə ilə bağlıdır?***



-Qiymət artımları bizim apardığımız monitorinqlərdə və Dövlət Statistika Komitəsinin elan etdiyi inflyasiya göstəricilərində də öz əksini tapır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2021-ci ilin geridə qalan aylarında hər ay əvvəlki aya nisbətən inflyasiya dərəcəsinin yüksək olması müşahid olunub. Rəsmi statistikaya görə, bu ilin yanvar ayında 3,3 faiz inflyasiya qeydə alınıbsa, fevralda 3,7, martda 3,9, apreldə 4, mayda 4,2, iyunda 4,3, iyulda 4,5, avqustda 4,8, sentyabrda 5,2 faiz olub. Dinamika göstərir ki, rəsmi inflyasiya statistikasında da qiymət artımları qeydə alınıb. Qiymət artımlarının inflyasiya strukturna diqqət yetirsək, qiymət artımları daha çox qida məhsulları ilə bağlıdır. Nəzərə alsaq ki, rəsmi statistikada 5,2 faiz inflyasiya elan olunub, amma ərzaq məhsullarında bu rəqəm 6 faiz olub. Təbii ki, tütün məhsullarının qiyməti 10 faiz artıb. Spirtli içkilərin qiymətində də artımlar müşahidə olunub. Kommunal tariflərin artırılması bazara təsir göstərdi. Bir sıra hallarda qiymətlərin süni şəkildə artırılması da müşahidə olunur. Bu istiqamətdə fəaliyyətlərin gücləndirilməsi çox vacibdir. Amma idxal inflyasiyası da var. Azərbaycanın istehlak etdiyi məhsulların təxminən 65 faizini, xüsusən də ərzaq məhsullarında bu pay yüksəkdir. Xaricdən idxal edir. Xaricdə qiymət artımları müşahidə edilən zaman daxili bazara da təsir göstərir.

***-Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ötən gün çıxışı zamanı qeyd etdi ki, gələn il növbəti sosial paket hazırlanacaq. Sosial paketdə nələrin yer almasını təklif edərdiniz?***

-Sosial paketin dəyəri 1,4 milyard manatdır. 2022-ci ildə kifayət qədər böyük məbləğli, irimiqyaslı sosial paketin təqdim olunması nəzərdə tutulur. Sosial paket çərçivəsində əmək haqqı və təqaüdlərdə artımın 20-40 faiz intervalında olacağı gözlənilir. Bununla bağlı detallar yaxın zamanlarda bəlli olacaq. Orta aylıq əməkhaqqında, orta aylıq pensiyada və büdcədən maliyyələşən vətəndaşlarımızın əməkhaqqında artımların olacağı proqnozlaşdırılır. Çünki 2022-ci ildə ilk dəfə olaraq sosial xərclər dövlət büdcəsi xərclərinin 46 faizdən çoxunu formalaşdıracaq. Bu o deməkdir ki, büdcədən ayrılan hər 100 manatın 46 manatdan çoxu sosial istiqamətə ayrılacaq. Sosial paketin maliyyələşdirilməsi üçün vəsait dövlət büdcəsində nəzərdə tutulub. Bu da təbii ki, sosial istiqamətə daha çox vəsait ayrılması anlamına gəlir.

***-Məlum olduğu kimi növbəti ildə maaş və pensiyalar artırılacaq. Siz bu artımın neçə faiz olmasını düşünürsüz?***

-Maaş və pensiyaların artımlarının təxminən 20-40 faiz intervalında olacağı proqnozlaşdırılır. Bununla bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən açıqlamalar verildi. Ehtiyac meyarı 170 manatdan 200 manata çatdırılır. Yaşayış minimumu növbəti il üçün 210 manat təklif olunur. Eyni zamanda minimum əməkhaqqı 250 manatdan 300 manata çatdırılacaq. Praktiki olaraq minimum əmək haqqı və minimum pensiya, digər ehtiyac meyarı yaşayış minimumunda gələn il artımların olacağını müşahidə edəcəyik.

***-2022-ci və 2023-cü ilin əvvəllərinə tərtib edilmiş proqnoz göstəricilərinə əsasən, əvvəlki illərdə olduğu kimi, növbəti ildə də pensiyaçıların sayında azalma baş verəcək. Pensiya yaşının artırılması da bu saya təsir edir. Pensiya yaşının çox olması insanları narahat edən məsələlərdən biridir. Ümumiyyətlə, yaxın illərdə pensiya yaşının azaldılması müzakirə oluna bilərmi?***

-Pensiyaçıların sayının dəyişməsi bir neçə səbəblə bağlıdır. Xüsusən də qadınlar üçün pensiya yaşının artırılması pensiyaçıların sayına təsir göstərir. Artıq kişilərdə pensiya yaşı 65-dir. Eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bəyan edib ki, əsassız pensiya alanların pensiya ödənişlərinə baxılır və hansılar ki, əsassız olaraq müəyyənləşib, onların ləğv edilməsi həyata keçirilir. Digər tərəfdən dünyasını dəyişənlərin olması pensiyaçıların sayına birbaşa təsir göstərir. Pensiya yaşına baxılması müzakirə edilən məsələlərdən biridir. Bununla bağlı bir neçə millət vəkili tərəfindən təkliflər irəli sürülmüşdü. Düşünürəm ki, pensiya islahatlarına yenidən baxılması və müzakirə olunması daha məqsədəuyğun olardı. Əgər şəxs pensiya yaşına çatmadan dünyasını dəyişirsə, bundan istifadə edə bilmirsə, pensiya hesabında yığılmış vəsaitin vərəsələrinə ötürülməsi, eyni zamanda pensiya yaşının xanımlar və kişilər üçün diferensial müəyyənləşdirilməsi məsələlərinə baxıla bilər. Pensiya ilə bağlı həyata keçirilən islahatların yenidən müzakirəsi, bununla bağlı fərqli tərəflərin rəyinin alınması və bu istiqamətdə təkmilləşdirmənin davam etdirilməsi məqsədəuyğun olardı.

***- Gələn il manatın məzənnəsinin necə olacağı da müzakirə olunan mövzulardan biridir. Necə düşünürsünüz, 2022-ci ildə manatın məzənnəsində dəyişiklik gözlənilirmi?***

-Azərbaycanda üzən məzənnə tətbiq olunmadığına görə, manatın məzənnəsi birbaşa Mərkəzi Bankın mövqeyindən asılıdır. Təbii ki, manatın məzənnəsinə ölkəyə daxil olan valyutanın həcmi, eləcə də qeyri-neft sektorunda tərəfdaşlarımızdakı vəziyyət birbaşa təsir göstərir. Bütün bunlarla yanaşı manatın məzənnəsi, xüsusən də Mərkəzi Bankın intervensiya imkanlarını nəzərə alsaq, Mərkəzi Bankın mövqeyindən birbaşa asılıdır. Ötən ilin mart-aprel aylarında dollara tələb kifayət qədər yüksəldi. Həmin dövrlərdə Rusiya və Qazaxstanda milli valyutanın dəyər itirməsini müşahidə etdik. Amma Mərkəzi Bankın intervensiyası nəticəsində manatın mövcud məzənnəsi qorunub saxlanıldı. Bu da ondan xəbər verir ki, məzənnəyə təsir edəcək əsas faktor Mərkəzi Bankın istifadə etdiyi alətlər, o cümlədən intervensiya alətləridir. Ona görə də 2022-ci il üçün Mərkəzi Bankın mövqeyi birbaşa manatın məzənnəsini müəyyənləşdirəcək əsas faktor olacaq. Üzən məzənnə rejiminə keçilmədiyi üçün xarici şoklar və daxili faktorların manatın məzənnəsinə təsirlərini qiymətləndirmək mümkün olsa da, məzənnənin necə dəyişəcəyi birbaşa Mərkəzi Bankdan asılı olur.

***Anar Kəlbiyev***

# Cavanşir Feyziyev - deputat, yoxsa biznesmen...

## Millət vəkilinin adı ətrafında qalmaqallar niyə səngimir?

***Günlərdir ölkə mediası Cavanşir Feyziyevin ailə üzvlərinin Londonun bank hesablarındakı 20.5 milyon dollarının (15.3 milyon funt sterlinq) müsadirə edilməsindən yazır.***

İngiltərənin Milli Kriminal Agentliyi bu pulların Böyük Britaniyaya qanunsuz olaraq daşınmış "çirkli pullar" olduğunu bildirib. Qeyd edilib ki, deputatın həyat yoldaşı Pərvanə Feyziyeva, oğlu Orxan və qardaşı oğlu Elman məhz deputatın onlara verdiyi korrupsiya vəsaitləri hesabına bu cür zəngin olublar.

Lakin Feyziyevin ailə üzvləri iddiaları rədd edir və bildirirlər ki, həmin sərvət millət vəkilinin qanuni kommersiya fəaliyyəti sayəsində əldə edilib.

Bu yerdə aylar öncəyə qayıtmaq və Milli Məclisin adıçəkilən üzvü ətrafında baş qaldıran qalmaqalı xatırlatmaq yerinə düşər. Məsələ burasındadır ki, ötən avqust ayında ən çox müzakirə olunan mövzulardan biri İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin böyük məbləğli tenderi, daha doğrusu, həmin tenderin nəticəsi ilə bağlı idi. Söhbət nədən gedir? Məsələ burasındadır ki, Agentlik Bakı ətrafında, Buzovna qəsəbəsində 1 illiyə ofis və anbar icarəyə götürüb. Müqavilənin dəyəri isə nə az, nə çox, 1 mln. 176 min manatdır. Bir sözlə, agentlik obyekti aylıq 98 min manata icarəyə götürüb, özü də Buzovnada!

Məsələnin maraqlı tərəfi odur ki, həmin obyektin sahibi gənc bir insan idi - Orxan Feyziyev. Ola bilər ki, çox bacarıqlı, təhsilli gəncdir, ancaq bir məsələ var idi ki, həmin bu gənc deputat Cavanşir Feyziyevin oğluydu. İqtisadçı ekspert Natiq Cəfərlinin sözü olmasın, bu da Azərbaycan fenomenidir - az qala, bütün məmur, deputat, nazir uşaqları doğuşdan bacarıqlı, biznesmen olurlar, həmişə tenderlər udurlar.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin keçirdiyi satınalma müsabiqəsində məhz millət vəkilinin qalib elan edilməsi də məhz həmin kontekstdə ictimai müzakirə yaratmışdı. Və media, ekspertlər, eləcə də sadə vətəndaşlar haqlı olaraq sual edirdilər:

1) Deputatın gənc oğlu bu yaşda necə uğurlu biznes qura bilib ki, dəyəri milyonlarla manat olan torpaq sahəsi və ofis sahibinə çevrilib?

2) Həmin biznes hansı sərmayə ilə qurulub? Axı bir insanın gənc yaşda və qısa vaxtda bu qədər sərvət əldə edə bilməsi üçün böyük məbləğdə "mayaya" ehtiyacı var. Elə isə deputat oğlu həmin sərmayəni haradan əldə edib?

3) Cavanşir Feyziyevin adı mətbuatda daim ölkənin dərman bazarının aparıcı fiquru kimi hallanır. İndi İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin keçirdiyi tenderdə məhz onun oğlunun qalib elan edilməsi bu mənada, doğrudanmı, təsadüfdür? Sualı bir az da sadələşdirək: Azərbaycanın dərman bazarında əsas pay sahibi olan C.Feyziyevin oğlunun dərman preparatlarının qəbulu, saxlanılması, daşınması üçün ofis və anbar kirayələməsi məqsədilə keçirilən tenderdə qalib elan edilməsi həmin tenderin ədalətliliyinə, obyektivliyinə şübhə salmırmı?

O zamanlar "Unikal" qəzetinin səhifələrində özünə yer tapan həmin suallar cavabsız qaldı. Düzdür, çoxları bu sualların cavabını özlüyündə müəyyənləşdirmişdi. Lakin ictimai ajiotaja səbəb olan xəbərin "qarşı tərəfləri" (yəni Feyziyevlər) bu barədə susmağı, ən yaxşı halda ümumi, mücərrəd, konkretlikdən uzaq cavablar verməyi üstün tutmuşdular.



İndi isə deputat və ailə üzvlərinin varidatı beynəlxalq səviyyədə mübahisələndirilir.

Onların cavabı yenə ümumidir, konkretlikdən uzaqdır və təəssüf ki, inandırıcılıq baxımından xeyli zəif təsir bağışlayır.

Ən maraq doğuran sual isə belədir: son illərdə Cavanşir müəllimin adı ətrafında sırf biznes kontekstində qalmaqallar səngimir, müxtəlif iddia və ittihamlar mütəmadi gündəmə gəlir? Bu bizə bir vaxtlar Milli Məclisin biznesmen-deputatları ilə bağlı səs-küylü xəbərləri xatırladır. İndi həmin deputatların çoxu mandatsızdır, parlamentdən kənarda qalıb. Çox az millət vəkili var ki, onların biznesi barədə oxuyuruq.

C.Feyziyev həmin çox az deputatdan biridir və onun adının davamlı şəkildə biznes qalmaqalları ilə gündəmə gəlməsi diqqətdən yayına bilməz. Üstəlik, adıçəkilən millət vəkilinin belə qalmaqallara ya susqun qalması, ya da ümumi sözlərlə münasibət bildirməsi ictimai rəydə fərqli yorumlara, yozumlara yol açır.

Ən əsası isə istər real həyatda, istərsə də sosial şəbəkələrdə gedən müzakirələrdən anlaşılan odur ki, cəmiyyət Milli Məclis üzvlərinin ailə biznesi barədə eşitməkdən, oxumaqdan yorulub. Bu isə nəticə etibarilə deputat statusunun imicinə xələl gətirir...

***Orxan Həsənli***

# Rusiya ATƏT-i regiona yenidən dəvət etməklə münaqişənin daha da uzadılmasına çalışır

***"II Qarabağ savaşından sonra regionda vəziyyət bir neçə cəhətində görə dəyişməyə başladı. Bu müharibədən və Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən sonra uzun illər ərzində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk Qrupu həmsədrlərinin fəaliyyətinə ehtiyac qalmadı.***

Ona görə də ATƏT-in Minsk Qrupu həmsədrlərinin 2020-ci il dekabr ayında regiona sonuncu səfəri çərçivəsində Azərbaycanda olduğu zaman ölkə başçısı cənab İlham Əliyev həmsədrlərə açıq şəkildə bildirmişdir ki, Azərbaycan bu münaqişəni öz silahlı qüvvələri hesabına həll edib və onların fəaliyyətinə ehtiyac qalmayıb. 9-10 iyul 2021-ci il tarixlərində Azərbaycan hökuməti tərəfindən təşkil edilən və ölkəmizdə fəaliyyət göstərən xarici ölkə diplomatlarının Şuşaya səfəri zamanı ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin, yəni ABŞ, Rusiy və Fransanın Azərbaycanda fəaliyyət göstərən diplomatları bu səfərə qatılmadılar".

"Unaikal" xəbər verir ki, bunu politoloq Samir Hümbətov bildirib. O, qeyd edib ki, 26 iyul 2021-ci ildə ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi Ermənistan-Azərbaycan sərhəddinə səfər edib və qoşunların təmas xəttində müşahidələr aparıb:

"Bu isə sözügedən dövlətlərin münaqişəyə nə dərəcədə ikili standartla yanaşmasının göstəricisi hesab edilə bilər. Təbii ki, təəssüflər qeyd etmək lazımdır ki, dövlətlər arasında hələdə Azərbaycanın qələbəsini qəbul etmək istəməyən və münaqişəni daha uzunmüddətli davam etməsini istəyənlərə də rast gəlmək mümkündür. Rusiya II Qarabağ savaşından sonra özünü regionda "sülhməramlı" göstərməyə çalışsa da, atdığı addımlardan bu niyyətdə olmadığı açıq şəkildə görünməkdədir. Məhz bu səbəbdən Rusiya XİN sözçüsü Mariya Zaxarovanın ATƏT-lə bağlı söylədiyi fikirləri regiondan sabitliyin bərpasına və üzunmüddətli sülhün əldə edilməsinə kölgə kimi qiymətləndirmək olar. Zaxarova çərşənbə günü təşkil edilmiş brifinqdə çıxışı zamanı bildirib ki, "Rusiya ATƏT-in Minsk Qrupu həmsədrlərinin Qarabağa genişmiqyaslı səfərləri praktikasının tezliklə bərpasını vacib sayır". Daha sonra Zaxarov sözlərinə onu da əlavə edib ki, "Biz hesab edirik ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin bu Qarabağ tam formatlı səfərləri praktikasını mümkün qədər tez bərpa etmək vacibdir".

Zaxarovanın bu iki cümləsindən bir neçə nəticə çıxartmaq olar.

1. Rusiya ənənəvi olaraq proseslərə öz maraqları kontekstindən yanaşır.

2. Rusiya ATƏT-i regiona yenidən dəvət etməklə münaqişənin daha da uzadılmasına çalışır.

3. Rusiya ATƏT-i öz xarici siyasəti naminə istifadə etməyə çalışır.

4. Rusiya bununla Azərbaycan və Türkiyəni şantaj etməyə çalışır.

Şübhəsiz ki, Rusiyanın bucür avantürist addımlarının nə Azərbaycanın, nə də Türkiyənin Qarabağla müvəqyinə təsir edəcəyini düşünmürəm. Ona görə ki, münaqişənin 30 ilə yaxın uzanmasının əsas səbəblərindən və səbəbkarlarından biri də məhz ATƏT-in Minsk Qrupunun bu məsələ işlə məşğul olması idi. Artıq Azərbaycan öz silahlı qüvvələrinin gücü hesabına öz ərazilərini işğaldan azad edib. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, Rusiya "sülhməramlıları" Qarabağda müvəqqəti dislokasiya olunub və onların fəaliyyət müddəti 5 illikdir. Bu da onu ifadə edir ki, Rusiya Qarabağda uzunmüddətli qala bilməz".

# Aİ Qarabağda atəşkəsin ildönümü ilə bağlı bəyanat yayıb

***Avropa İttifaqının (Aİ) Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsinin mətbuat katibi Peter Stano Ermənistan və Azərbaycan arasında atəşkəs sənədinin imzalanmasının birinci ildönümü ilə bağlı bəyanat yayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Aİ-nin rəsmi saytında məlumat yerləşdirilib.

Bəyanatda vurğulanıb ki, Ermənistan və Azərbaycan arasında imzalanmış atəşkəs razılaşmasından sonra Qarabağda və onun ətrafında hərbi əməliyyatların dayandırılmasının birinci ildönümüdür.

"Avropa İttifaqı bu döyüşlər zamanı insan tələfatına görə təəssüflənir, həlak olanların ailələrinə başsağlığı verir. Döyüş əməliyyatları dayandırılsa da, danışıqlar yolu ilə hərtərəfli və dayanıqlı həllə doğru irəliləmək üçünbir çox məsələlər həll edilməlidir. Biz, xüsusilə tərəfləri atəşkəs rejiminə ciddi riayət etməyə, qalan bütün saxlanılanların dərhal azad edilməsinə, minaların təmizlənməsi üzrə tam əməkdaşlığa və sərhədyanı ərazilərdə gərginliyin azaldılmasına çağırırıq" - , bəyanatda qeyd olunub.

Aİ rəsmisi bildirib ki, təşkilat dinc və firavan Cənubi Qafqazın təşviqinə sadiqdir və sülh quruculuğuna, münaqişədən sonrakı yenidənqurmaya töhfə verməkdə fəal iştirak edir. Aİ münaqişədən zərər çəkmiş insanlara, minaların təmizlənməsi və erkən bərpa işlərinə 17 milyon avrodan çox humanitar yardımla dəstək verib. Aİ tərəflərin ehtiyac duyduğu texniki yardım göstərməklə sərhədlərin delimitasiya və demarkasiyasını dəstəkləməyə hazırdır. Aİ Cənubi Qafqazda qarşılıqlı fəaliyyət və iqtisadi əməkdaşlığı təşviq edir".

## Məktəblərdə istilik sistemi işləmir, şagirdlər virusa yoluxur

***Son günlər hər kəsi, xüsusən də valideynləri ən çox narahat edən məsələ məktəblərdə istilik sisteminin zəif işləməsi, ya da heç işləməməsidir. Belə ki, sinif otaqlarının soyuq olması uşaqların daha tez xəstələnməsinə və virusa yoluxmasına yol açır.***

Təhsil eksperti Elşən Qafarov Bakıvaxtı.az-a açıqlamasında məktəblərdə istilik sistemi probleminin həll yolundan danışıb:

Bildiyimiz kimi, Azərbaycan Respublikasında istilik sistemi ilə bağlı qış mövsümü hər il 16 noyabrdan başlayaraq 15 apreldə bitir və 5 ay davam edir. Ölkə ərasizində soyuq havalar sentyabr ayının sonundan başlayır. Artıq uzun illərdir ki, bu tendensiya davam edir. Ölkəmimizn dağlıq və dağətəyi rayonlarında artıq birinci qar hələ oktyabr ayında yağdığını nəzərə alsaq , qış mövsümünün 16 dekabrdan başlaması qapalı şəraitdə fəaliyyət göstərən dövlət mülkiyyətində olan müəssələrdə , xüsusi ilə ümumitəhsil və digər təhsil müəssələrində ciddi fəsadlar yaradır. Pandemiya dövründə bu fəsadların miqyası daha genişdir.

Soyuq havada o cümlədən qış mövsümündə otaqların və ya binanın daxilində temperatur nə qədər olmalıdır? Bu rəqəm müxtəlif ölkələrdə biri-birindən az da olsa fərqlənir və minimal və ya maksimal rəqəmlərlə müəyyən edilir. .

Məsələn : İngiltərədə bu rəqəm minimum 17,5 dərəcə , Yaponiyada maksimum 20 dərəcə, Azərbay Respublikasında isə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin 21.08.2017-ci il tarixli Kollegiya iclasının qəraına əsasən qəbul edilmiş “İsitmə, ventilyasiya və havanın kondisiyalaşdırılması. Layihələndirmə normaları” və “Qazanxana qurğuları. Layihələndirmə normaları”na görə qış və keçid dövründə ictimai binalarının oraqlarının temperaturu 20-22 dərəcə müəyyən edilmişdir.

Eyni zamanda, qeyd etməliyik ki, ölkəmizdə yaz aylarında havanın isinməsi daha tez baş verir.Yəni artıq Novruz bayramından sonra havanın sürətlə isinməsi və yaz tətilinin 7-8 gün davam etməsi, adətən mart ayının sonu, aprel ayının əvvələrində isitmə sisteminə ehtiyacı kəskin azaldır.

Hal-hazırda sinif otaqlarının 18 dərəcədən aşağı olması müəllimlərin və şagirdlərin, o cümlədən məktəbin digər işçilərinin kütəvi soyuqlanmasını, qripə və digər infeksion xəstəliklərə, həmçinin COVİD-19-a yoluxmasına şərait yaradır.

Nə etməli? - Problemin ən optimal variantı olaraq təklif edirəm ki, ölkəmizdə qış dövrünün 1 oktyabr-15 mart əhatə etməsi üçün hüquqi nortativ akt qəbul edilərsə , ictimai binaların ,o cümlədən təhsil müəssələrinin qızdırılmasına 1 oktyabrdan başlanarsa hazırda qarşılaşdığımız problem demək olar ki aradan qalxmış olacaq...

## Təhsil Tələbə Kredit Fondunun vəsaiti artırıla bilər

***“Təhsil sahəsində çox böyük işlərin görülməsi nəzərdə tutulur”.***

“Unikal” xəbərinə görə, bunu maliyyə naziri Samir Şərifov noyabrın 11-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin və İntizam komissiyasının birgə iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı deyib.

“Artıq tələbə kreditləri ilə bağlı fond yaradılıb. Gələcəkdə də bu fondun vəsaitlərinin artırılması nəzərdə tululur”, - nazir bildirib.

## Bakıda koronavirusa görə bağlanan məktəb açıldı

***Bakıda koronavirusa görə bağlanan 20 nömrəli məktəb-liseydə əyani tədris bərpa olunub.***

Unikal.org xəbər verir ki, Gigiyena və Epidemiologiya Mərkəzinin rəyi əsasında 20 nömrəli məktəb-lisey üçün müəyyənləşdirilmiş qısamüddətli karantin başa çatıb.

Xatırladaq ki, oktyabrın 18-dən iki həftəlik distant təhsilə keçid edən məktəb-liseyin karantinin müddəti oktyabrın 30-dan daha 10 gün uzadılmışdı.

# Vidadi İsayevin kreslosuna təhlükə...

## Bərdə Rayon İcra Hakimiyyətinin başçısı postunu itirə bilər

***Bu ilin sonu, gələn ilin əvvəllərində Azərbaycanda bəzi şəhər və rayonların icra hakimiyyətlərinin başçıları postlarından kənarlaşdırıla bilər. ”Unikal” qəzetinin məlumatına görə, belə icra başçılarından bəzilərinin adları məlumdur. Onların ön sırasında isə ölkə başçısının 2011-ci il tarixli sərəncamı ilə Bərdə Rayon İcra Hakimiyyətinin (RİH) başçısı təyin edilən Vidadi İsayevin adı var.***



Qeyd edək ki, 10 ildir adıçəkilən rayona rəhbərlik edən İsayev bundan əvvəl isə 6 il boyunca (2005 - 2011-ci illərdə) Tərtər Rayon İcra Hakimiyyətinin başçısı postunu tutub.

62 yaşlı İsayev hər iki postda çalışdığı dövrdə barəsində ən çox şikayət, ittiham səslənən rayon rəhbərlərindən biri kimi tanınır. Son iki ildə isə Vidadi müəllimin fəaliyyətindəki nöqsanları yuxarı dövlət orqanlarının hesabatlarından, yoxlamalarından da aydın görmək olar.

Belə ki, 2019-cu ildə Hesablama Palatası öncəki il həyata keçirdiyi nəzarət tədbirləri nəticəsində nöqsan aşkar olunan icra hakimiyyətlərini və onların yol verdikləri nöqsanların mahiyyətini açıqlayıb. Palatanın hesabatına əsasən, bunlar Gədəbəy, Bərdə, Balakən və Ağstafa rayon icra hakimiyyətləridir.

Məlumata görə, 2018-ci ildə büdcə qanunvericiliyini Bərdə RİH altı dəfə pozub. Əsaslı vəsait qoyuluşlar üzrə bu rayonda dörd nöqsan qeydə alınıb. Bundan başqa, adıçəkilən RİH-də vergi və gömrük qanunvericiliyinin pozulması üzrə iki, mühasibat uçotu və hesabatlılıqla bağlı altı nöqsan aşkarlanıb.

Həmçinin rayondakı ayrı-ayrı idarə və müəssisələrin işində də ciddi qüsurlara yol verildiyi rəsmi şəkildə təsdiqlənib. Məsələn, Hesablama Palatasının apardığı auditin nəticələrinə görə, 2017-2018-ci illərdə Bərdə rayon Mərkəzi Xəstəxanasında ciddi yeyintilərə yol verilib. Məsələn, ”Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydaları”nın tələbləri bəzi hallarda gözlənilməyib, istifadə müddəti bitmiş dərman, sarğı ləvazimatları və materialları aşkar edilib, əmək haqlarının hesablanması və ödənilməsi zamanı bir sıra normativ hüquqi sənədlərin tələbləri gözlənilməyib, tarif dərəcələrinin düzgün müəyyənləşdirilməməsi nəticəsində artıq əmək haqqı ödənilib, normadan artıq ərzaq məhsulları silinib, yerinə yetirilməmiş əsaslı təmir işlərinə görə vəsait ödənilib, ehtimal olunan qiymətlərin müəyyən edilməməsi səbəbindən mallara (işlərə və xidmətlərə) görə artıq vəsait ödənilib, satınalma keçirilmədən, təsdiqedici sənəd olmadan vəsait xərc edilib, səhiyyə müəssisələrinin tələbatından artıq mal-materiallar alınaraq uzun müddət istifadəsiz saxlanılıb və s. və i.a. Hətta Hesablama Palatası bununla bağlı müvafiq materialların Baş Prokurorluğa göndərilməsinə dair qərar verib.

Bundan başqa, ölkə mediası ötən ilin mayında Bərdənin icra başçısının sərvəti barədə inanılmaz iddialar irəli sürüb. Deyilənlərə inansaq, onun Bakı, A. Bakıxanov, ev 39, H.Zərdabi 3153-cü məhəllə, ev 7, Şərq küç, ev 11B ünvanlarında mənzilləri, ”Ana və Uşaq” kafesi, ”Təchizat BCS” MMC şirkəti, Bərdədə ikimərtəbəli mağaza, Mixaylovka kəndində bir imarəti, Xətai rayonu, Babək prospektində 4 mərtəbəli 2 ayrı malikanəsi, Yevlax-Bərdə yolunun üstündə balıq vətəgələri ,Yevlaxda, Bərdədə, Tərtərdə hektarlarla torpaq sahələri, iaşə obyektləri və mənzilləri, Rusiyada, Türkiyədə biznesi və s. var.

Vidadi İsayev bu yazılanları təkzib etməyib, ya da təkzib etməyə gərək görməyib.

İddia edilir ki, xüsusilə Bərdəyə rəhbərlik etdiyi dövrdə bu qədər varlanması adıçəkilən icra başçısının korrupsiya hesabına əldə etdiyi vəsaitlər sayəsində mümkün olub.

Onu da deyək ki, hələ ötən il Vidadi İsayevin vəzifəsindən azad edildiyi və bu barədə rəsmi sənədin tezliklə elan ediləcəyi bildirilmişdi. Lakin sonradan həmin xəbər təsdiqini tapmadı. Üstəlik, Bərdə rayon RİH başçısının həbs edilən rayon rəhbərlərinin karvanına qoşulacağı da istisna olunmurdu. Bununla belə, həmin iddialar da özünü doğrultmadı.

Ancaq Vidadi müəllimin vəzifəsindən kənarlaşdırılacağı barədə iddialar yenidən gündəmə gəlib. Hesab olunur ki, qarşıdakı aylarda belə bir qərar verilərsə, bu, təəccüblə qarşılanmamalıdır. Çünki, yuxarıda da vurğuladığımız kimi, o, hazırda haqqında ən çox şikayət, ittiham irəli sürülən, narazılıqlar səsləndirilən rayon rəhbərlərinin siyahısında ön sırada dayanır...

***Toğrul Əliyev***

# Füzuli Ələkbərovun milyonluq tenderləri...

## Sabiq nazir birdən-birə iri məbləğdə dövlət satınalmalarını qazanmağa başlayıb

***Son vaxtlar sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərova məxsus şirkətlərin dövlət qurumlarından iri məbləğdə tenderlər qazandığı müşahidə edilməyə başlanılıb.***

Qeyd edək ki, cənab Ələkbərov postunu itirdikdən (2013-cü il) sonra onun şəxsi biznesində ciddi böhran hiss edilirdi. Eks-nazirin holdinqinə daxil olan şirkətlərin fəaliyyəti kəskin zəifləmiş, həmin şirkətlərdən bəziləri isə fəaliyyətini ümumiyyətlə dondurmalı olmuşdu.

Lakin son iki ildə F.Ələkbərovun şirkətləri yenidən dövlət satınalmalarında fəal iştirak etməyə və böyük məbləğdə tenderləri udmağa başlayıb.

Məsələn, ötən il Xəzər rayon Mənzil Kommunal Təsərrüfatı Birliyi "İmprotex trucks and buses" MMC ilə müqavilə bağlayıb. Maliyyə dəyəri 457 min 151.35 AZN olan müqaviləyə əsasən şirkət qurumu kommunal təyinatlı maşın və mexanizmlərlə təmin etməli idi.

Bildirək ki, "İmprotex truck and buses" MMC F.Ələkbərova məxsus "İmprotex Group" holdinqinə daxil olan biznes strukturlarından biridir.

Düzdür, eks-nazir vəzifədən uzaqlaşdırıldıqdan sonra iddia olunurdu ki, onun nəzarətində olan şirkətlər, o cümlədən "İmprotex Group" əlindən alınıb. Lakin holdinqin veb səhifəsinə nəzər yetirdikdə şirkətin sahibinin hələ də Füzuli Ələkbərov olduğu görünür.

Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil Kommunal Təsərrüfatı Departamenti (MKTD) yanında Kommunal Xidmətlər Müəssisəsi (KXM) 2 zibil maşınının alınması üçün keçirilən tenderi də Füzuli Ələkbərovun yuxarıda adıçəkilən şirkəti qazanmışdı. Lakin maraqlıdır ki, bundan cəmi bir ay sonra Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti xüsusi kommunal avadanlıqların alınması üçün bütün iddiaçıların təkliflərinin "tenderin əsas şərtlər toplusunun formal tələblərinə cavab verMədiyi"ni bildirib. Bundan sonra həmin satınalma ləğv olunub. Qeyd edək ki, "İmprotex trucks & buses" MMC qiyməti 914,3 min manat olan "MAN" markalı iki zibil maşını təklif edirdi. Beləliklə, tenderin nəticələrinin ləğvindən sabiq nazir 1 milyon manata yaxın qazanc itirmişdi.

Maraqlıdır ki, oxşar qərar ötən il fevralın 3-də Bakı şəhəri Nizami rayonunun MKTD-nin Mənzil Kommunal Xidmətlər Birliyi tərəfindən də verilib. Belə ki, qiyməti 821,7 min manat olan iki kommunal texnikanın tədarükü təkilifi ilə "Improtex Trucks & Buses" MMC tenderin qalibi elan olunub. Ancaq sonradan bu tenderin nəticəsi də ləğv edilib. Yəni Füzuli müəllimin şirkəti ikinci dəfə kifayət qədər böyük məbləğlə ifadə oluna biləcək qazancını itirib.

Bununla belə diqqətçəkicidir ki, 2020-ci ildə "Improtex trucks & buses" Bakı şəhərinin Mənzil-Kommunal Xidmətlər birlikləri ilə cəmi dəyəri 10.4 mln. manat olan kommunal nəqliyyat vasitələrinin təchizatı üçün iki müqavilə imzalayıb.

Bundan başqa, paytaxt meriyası 2019-cu ilin oktyabr ayında da bu şirkətdən böyük məbləğdə təxminən eyni təyinatlı avadanlıqlar alıb. Belə ki, 2019-cu ilin 18 oktyabrında "İmprotex Trucks and Buses" MMC-dən ümumi dəyəri 12 milyon 436 min 322 manat olan Kommunal təyinatlı maşın və mexanizmlər alınıb.



Göründüyü kimi, iki-üç il öncəyədək biznesinin əlindən alındığı, yaxud iflas etdildiyi deyilən sabiq Əmək və Əhalinin Sosial Müdafiəsi naziri hazırda iri məbləğlərlə ifadə olunan dövlət satınalmalarının qalibi olmağa başlayıb. Bu isə kifayət qədər maraq doğurur. Çünki Füzuli müəllim "vurulduqdan" müəyyən müddət sonra yenidən öz biznesini çiçəkləndirməyi bacaran, tenderlərdə qalibə çevrilməyə nail olan azsaylı keçmiş iri məmurlardan biri sayıla bilər. Onun buna necə nail olduğu isə həqiqətən düşündürücüdür.

Xatırladaq ki, Füzuli Ələkbərov 2006-2013-cü illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri vəzifəsində işləyib. 2013-cü ilin yanvarında İsmayıllıda baş verən iğtişaşlar Füzuli Ələkbərovun məmur karyerasına son qoyub.

Belə ki, Füzuli Ələkbərova məxsus "Çıraq" hotelinin inzibatçısı Emil Şəmdinovun və tanışı Elməddin Məmmədovun adıçəkilən rayonda sərxoş vəziyyətdə özgənin əmlakının zədələnməsi ilə müşayiət olunan qərəzli xuliqanlıq hərəkətləri etmələri və bununla əlaqədar hadisə yerinə toplaşmış bir qrup şəxs tərəfindən "Çıraq" hotelinin və müxtəlif markalı avtomobillərin yandırılması ilə nəticələnən kütləvi münaqişə, daha sonra isə bir neçə kütləvi etiraz aksiyası baş vermişdi. Bu da ölkədə ciddi rezonans doğurmuşdu...

***Sənan Mirzə***

# "Hərbi qulluqçuların statusu haqqında" qanun qəbul olunacaq

***"Hərbi qulluqçuların statusu haqqında" qanun qəbul olunacaq. Ancaq bu məsələ zaman tələb edir".***

Unikal.org-un xəbərinə görə, bu fikirləri parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov noyabrın 11-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin və İntizam komissiyasının birgə iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı deyib.

O eyni zamanda bildirib ki, 2022-ci ilin dövlət büdcəsi riskləri olmayan bir büdcədir: "Hesab edirəm ki, son illər büdcə sabitləşib və tarazlı hala gəlib".

# Mikayıl Cabbarov Zəngəzur dəhlizindən danışdı

***"Ölkə prezidentinin rəhbərliyi ilə Azərbaycan ordusu torpaqlarımızı işğaldan azad edib. Haqq savaşımızda qardaş Türkiyə və onun daxil olduğu Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası (Türk Şurası) Azərbaycana böyük siyasi - mənəvi dəstək göstərib".***

Unikal.org xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov İstanbulda keçirilən Türk Şurasının İqtisadi Zirvəsində çıxışında deyib.

O bunun üçün Türkiyəyə və Türk Şurasına üzv ölkələrə təşəkkür edib.

"44 günlük Vətən Müharibəsində qazandığımız zəfər böyük tarixi və siyasi məzmuna, eyni zamanda yerləşdiyimiz bölgə üçün mühüm əhəmiyyətə malikdir. Tarixi qələbə ölkəmiz və bütövlükdə regionun inkişafı üçün yeni reallıqlar, yeni regional əməkdaşlıq imkanları yaradıb. Hazırda işğal edilmiş ərazilərimizdə sürətli bərpa və quruculuq işləri aparılır. Bölgədə ticarət, tranzit və logistika imkanlarının genişləndirilməsinə töhfəsini verəcək, Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizi layihəsinin sürətlə həyata keçirilməsini qeyd etmək istəyirəm. İnanıram ki, bu layihə ölkələrimiz arasında qarşılıqlı ticarətə, sərmayə axınına müsbət təsir göstərəcək", - M.Cabbarov bildirib.

# Sahil Babayevdən pensiyaların artırılması ilə bağlı açıqlama

***"Son 3 ildə ölkədə əmək müqavilələrinin sayı 400 min artıb. Həmin müqavilələrin 300 mini özəl sektorun payına düşür"***

Unikal.org-un xəbərinə görə, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev noyabrın 11-də Milli Məclisin Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı deyib.

"Bu gün DSMF-nin gəlirlərində və əhaliyə ödənişlərində büdcə və qeyribüdcə sektorunun payı qoruna bilir. Gələn il əmək pensiyaları üzrə ümumilikdə 71 milyon manat artım planlaşdırılır", - nazir vurğulayıb.

# Maliyyə naziri: "Mərkəzi Bankla birgə əlaqələndirilmiş siyasət aparırıq"

***"Maliyyə Nazirliyi bilavasitə manatın məzənnəsinə təsir göstərən qurum deyil".***

Unikal.org-un məlumatına görə, bunu maliyyə naziri Samir Şərifov jurnalistlərə açıqlamasında deyib.

"Biz çalışırıq ki, büdcə xərclərimiz manatın məzənnəsinin dəyərsizləşməsinə xidmət etməsin. Bu baxımdan Mərkəzi Bankla birgə əlaqələndirilmiş siyasət aparırıq", - deyə nazir əlavə edib. O bildirib ki, 2022-ci ilin dövlət büdcəsinin xərcləri manatın hazırkı məzənnəsi (1.70 AZN) ilə hesablanıb.

Azərbaycan xarici dövlət borcunu azaltmaq niyyətindədir. Bunu maliyyə naziri Samir Şərifov noyabrın 11-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin və İntizam komissiyasının birgə iclasında gələn ilin dövlət büdcəsi zərfinə daxil olan sənədlərin müzakirəsi zamanı deyib.

Nazir bildirib ki, Azərbaycanın xarici dövlət borcu o qədər də yüksək deyil. Bunu Hesablama Palatası, beynəlxalq təşkilatlar da təsdiq edir.

"Məqsədimiz odur ki, xarici dövlət borcunun xüsusi çəkisini azaldaq, daxili dövlət borcunun xüsusi çəkisini isə artıraq". - deyə nazir bildirib.

## Amnistiya aktının icrasının yekunlaşacağı müddət açıqlandı

***Amnistiya aktının icra müddəti 4 ay göstərilməsinə baxmayaraq daha qısa müddətdə icra ediləcək.***

Unikal.org-un məlumatına görə, bunu Ədliyyə Nazirliyi yanında İctimai komitənin üzvü, Konstitusiya Araşdırmaları Fondunun prezidenti Əlimməd Nuriyev 8 noyabr - Zəfər Günü münasibətilə elan olunmuş Amnistiya Aktına həsr edilmiş “Dövlətimizin humanist siyasətinin növbəti təzahürü” mövzusunda KİV-lərin iştirakı ilə dəyirmi masada çıxışı zamanı deyib.

Onun sözlərinə görə, amnistiya aktının imzalanmasından dərhal sonra 100-dən artıq şəxs azadlığa çıxıb: ”Düşünürəm ki, bir ay müddətində icra yekunlaşa bilər”.

## DSX zabiti erməni SU-25-ni necə məhv etdiklərindən danışdı

***”Heyətimiz Şükrataz yüksəkliyində yerləşən vaxt, həmin istiqamətə iki dağ arasından düşmənin SU-25 təyyarəsinin üzərinə gəlmələrini aşkar edirlər”.***

Unikal.org xəbər verir ki, bunu Dövlət Sərhəd Xidmətinin rəis müavini, general-leytenant İlham Mehdiyev İTV-də yayımlanan ”Görünməyən qəhrəmanlar. Dövlət Sərhəd Xidməti” sənədli filmində deyib.

Baş leytenant Elgün Ağayev düşmənə məxsus SU-25 qırıcısının məhv edilməsindən danışıb. O bildirib ki, SU-25 qırıcısı Şükrataz yüksəkliyinin çox aşağı meylliyi ilə uçurdu:

”Çünki yuxarı qalxdıqda bizim Hərbi Hava Qüvvələri onları tez vururdu. Onun üçün də çox aşağı meyllilikdə SU-25 qırıcı təyyarəsi bomba ata-ata üzərimizə gəlirdi. Biz hazır vəziyyətdə idik. Cəmləşmiş atəş nəticəsində üzərimizə gələn vaxtın tutduq. Sürətli gəlsə də, gözləyirdik. Cəmləşmiş atəşdə bütün güllələrdən üzərinə atəş açıldı. Həmin vaxt manevr edə bilmədi, təsirdən qayaya çırpıldı. Pilot katapult edə bilmədi. SU-25 təyyarəsi həmin yerdə də məhv oldu”.

## Raket və artilleriya bölmələrimiz döyüş atışlarını belə icra edir

***2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Raket və Artilleriya Qoşunlarının bölmələrində döyüş atışları icra edilib.***

Müdafiə Nazirliyindən Unikal.org-a verilən məlumata görə, şəxsi heyətin səhra vərdişlərinin və praktiki bacarıqlarının artırılması məqsədilə keçirilən təlimdə artilleriya bölmələri cəmləşmə rayonlarına çıxarıldıqdan sonra təyin olunmuş yerlərdə atəş mövqelərini tutublar.

Atəşin idarəedilməsi və digər suallar məşq etdirilərək hərbi qulluqçuların bilik və bacarıqları təkmilləşdirilib.

Bölmələr şərti düşmən hədəflərini sərrast atəşlə məhv edərək qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

## “Azərişıq” gücləndirilmiş iş rejimində çalışır

***Ötən gündən başlayan güclü külək səbəbiylə “Azərişıq” ASC gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir. Bakıda və regionlarda gücləndirilmiş iş və növbətçilik sistemi təşkil olunub. Öncədən ərazilərə əlavə mal-material göndərilib və maşın-mexanizmlərin cəlb edilməsi ilə bağlı tapşırıq verilib.***

Bu barədə Unikal.org-a ASC-dən məlumat verilib.

Qeyd olunub ki, bəzi ərazilərdə güclü külək ağacları, dam örtüklərini və kənar əşyaları xətlərin üzərinə aşırıb və qəzalara səbəb olub. Nəticədə naqillər və dayaqlar yararsız hala düşüb. Dərhal əraziyə cəlb olunan Qəza xidmətinin əməkdaşları müəyyən vaxt çərçivəsində bərpa işləri həyata keçirib. Gecə boyu fasiləsiz iş rejimində çalışan Qəza xidməti əksər qəza yerlərini qısa vaxtda elektrik enerjisi ilə təmin edib. Bakı şəhəri üzrə qəzalar aradan qaldırılmış, Regionlarda bir neçə ünvanda qəzaların aradan qaldırılması işləri yekunlaşmaq üzrədir.

“Azərişıq” ASC istehlakçılara müraciət edərək bildirir ki, elektrik enerji təchizatı ilə əlaqədar qarşılaşdıqları çətinliklərlə bağlı 24 saat fəaliyyət göstərən və bütün ölkə ərazisini əhatə edən 199 Çağrı Mərkəzi ilə əlaqə saxlasınlar.

# Daha bir icra başçısı ilə bağlı böyük müəmma...

### Ziyəddin Əliyevin general qardaşı vəzifəsindən niyə azad edildi?

***Yola salmaq üzrə olduğumuz həftə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavinlərindən biri işdən çıxarıldı. Bununla bağlı imzalanan müvafiq sərəncama əsasən, general-mayor Şahvələd Əliyev Dövlət Xidməti rəisinin müavini vəzifəsindən azad olunub.***

Qeyd edək ki, Ş.Əliyev 2018-ci ildən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini vəzifəsində çalışırdı. Prezident İlham Əliyevin 2019-cu il 11 fevral tarixli sərəncamı ilə ona general-mayor ali hərbi rütbəsi verilib.



Xatırladaq ki, Ş.Əliyev Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyevin qardaşıdır. Maraqlıdır ki, son vaxtlar Z.Əliyevlə bağlı yerli mətbuatda ilginc iddialar yer alır. Bu iddialar onun xüsusilə ölkə xaricində böyük biznesə malik olması ilə bağlıdır.

Yerli KİV-də yazılanlara inansaq, uzun illər yol təsərrüfatında rəhbər vəzifələrdə işləyən icra başçısı hələ o vaxtdan yolunu Çexiyaya salıb, burada şirkət qurub, şirkətinin menecerliyini çex qadına həvalə edib. Sonra bir az da irəli gedib, Avstriyada növbəti şirkətini açıb. Tikinti materialları ticarətinə girişib.

Haşiyə: Quba rayon İcra Hakimiyyətinin başçısı Əliyev Ziyəddin İsmayıl oğlu 27 iyun 1963-cü ildə Ermənistanın Krasnoselsk rayonunun Ardanıs kəndində anadan olub. 2002-2008-ci illərdə “Bakı Yol Tikinti-1” ATSC-nin direktoru, 2009-2010-cu illərdə Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin “Azəryolservis” ASC-nin “77 saylı Yol İstismarı” MMC-də baş mühəndis, 2010-2013-cü illərdə “Mühəndis Yol Təmir-Tikinti” MMC-də baş mühəndis, 2013-2015-ci illərdə “Azəryolservis” ASC-nin “81 saylı Yol İstismarı” MMC-nin rəisi, 2015-2017-ci illərdə “Azəravtoyol” ASC-nin “Bakı 2 №-li Yol İstismarı” MMC-nin direktoru vəzifələrində çalışıb. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Yerli KİV-in iddialarına görə, Z.Əliyev Çexiyada şirkətini hələ “Bakı Yol Tikinti-1” ATSC-nin direktoru olarkən, yəni 2008-ci ilin yanvarın 18-də açıb. İlkin nizamnamə kapitalı 200 min kron olan AZ SERVIS - NR s.r.o. (MMC) şirkətinin qeydiyyat sənədində təsisçinin 27 iyun 1963-cü il təvəllüdlü, Bakı şəhəri, Ə.Kürçaylı 7/45 ünvanında pasport qeydiyyatında olan Ziyəddin Əliyev olduğu qeyd olunub. Şirkətin adında NR sonluğu Ziyəddin Əliyevin oğlanlarının adlarının baş hərfləridir.

Şirkət Çexiyanın Brno ədliyyəsindən 28267184 saylı qeydiyyat şəhadətnaməsi alıb. İlk qeydiyyat ünvanı Brno, Nezamyslova 2799/28, PSC 61500 olub. Hazırda icra başçısına məxsus şirkətin ofisi Brno şəhəri, Prikop küçəsi 4 ünvanındakı Internationale Business Center-də yerləşir. Fəaliyyət sahəsi: istehsal, xidmət, ticarət.

Ziyəddin Əliyev öncələr, yəni 2008-2009-cu illərdə şirkətin idarəçiliyini tanışı, 1969-cu il təvəllüdlü İrina Mixaylikovaya həvalə edib. Lakin 2009-cu ildə aralarındakı narazılıqdan dolayı Ziyəddin Əliyev onu şirkətdən uzaqlaşdırıb.

2017-ci ilə qədər şirkəti özü idarə edən Ziyəddin Əliyev həmin il oktyabrın 16-da, yəni Quba rayon icra hakimiyyətinin başçısı vəzifəsinə təyinat almasından ay yarım əvvəl onu o zaman Azərbaycan Dövlət İqtisad Universitetinin magistrantı olan 26 yaşlı oğlu Nicat Əlibəylinin idarəçiliyinə verir. İddialar bu yöndədir ki, görünür, Z.Əliyev artıq yeni vəzifə üçün sənədlərini təqdim etmişdi və müvafiq sərəncamı gözləyirdi.

2017-ci ilə aid illik maliyyə hesabatına görə icra başçısına aid bu şirkətin aktivləri 15 milyon kron, yəni yarım milyon dollar civarındadır.

O da iddia edilir ki, Ziyəddin Əliyev həmin şirkət üzərindən Brnoda avtosalon və servis mərkəzi açıb.

Yerli KİV-in yazdıqlarından Z.Əliyevin Avropadakı biznesinin Çexiya ilə məhdudlaşmadığı da görünür. Belə ki, 22 iyul 2017-ci ildə onun Avstriyanın paytaxtı Vyanda daha bir şirkət qeydiyyatdan keçirdiyi söylənilir. Qeyd edilir ki, ”S.M.A.N Business Solutions GmbH” adlı həmin şirkət Vyana ədliyyəsində 30 min avro nizamnamə kapitalı ilə FN 457017 i saylı lisenziya alıb. Nizamnamə üzrə fəaliyyət dairəsi daşınmaz əmlak, tikinti, ticarət sahələrini əhatə edir.

”Şirkətin hissələrinin 51 faizi Ziyəddin Əliyevin Çexiyada sahibi olduğu AZ SERVIS - NR s.r.o. şirkətinə, 49 faizi isə Sübhan Məmmədli adlı şəxsə məxsusdur.

Maraqlıdır ki, Quba rayonunun icra başçısı özü barədə bütün bu deyilənləri, yazılanları yalanlamayıb. Nəticədə cəmiyyətdə ortaya atılan iddialarda həqiqət payının yüksək olduğuna dair şübhələr daha da qüvvətlənib.

Məhz belə bir vaxtda Z.Əliyevin rütbəcə general qardaşının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini vəzifəsindən azad edilməsi maraq doğurur. Bəziləri belə hesab edirlər ki, bu, icra başçısının özünün də ”vurula” biləcəyinin siqnalıdır.

Deyilənlərin nə qədər doğru olduğunu isə zaman göstərəcək. Odur ki gözləyək...

***Toğrul Əliyev***

**İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# 17 min şəxsi əhatə edəcək Zəfər Amnistiyası...

## Əlməmməd Nuriyev: “Amnistiya cəzaçəkmə müəssisələrində idarəetməyə təsir göstərir və islah meyillərini gücləndirir”



***Xəbər verdiyimiz kimi, 8 noyabr - Zəfər Gününün Azərbaycan xalqı üçün müstəsna əhəmiyyəti nəzərə alınaraq və humanizm ənənələrini davam etdirərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən amnistiya elan edilməsi təşəbbüsü irəli sürülüb. Artıq Zəfər Günü münasibətilə elan olunmuş Amnistiya aktının icrasına başlanılıb. Noyabrın 5-də ədliyyə naziri Fikrət Məmmədov tərəfindən amnistiya aktının icrası ilə bağlı müvafiq əmr imzalanıb. Aktın icrası çərçivəsində noyabrın 6-dan başlayaraq məhkumların azad olunmasına start verilib və proses 4 ay davam edəcək. İlk gün artıq 36 məhkum azadlığa buraxılıb.***

Qeyd edilib ki, bu akt Amnistiya aktları tarixində ilk dəfə ibtidai istintaqı davam edən cinayət işlərinə də aid olunub. Aktın Penitensiar Xidmətdə 5800-ə yaxın, Probasiya Xidmətində 8800-ə yaxın məhkuma şamil olunması gözlənilir.

Xatırladaq ki, Milli Məclis noyabrın 5-də Zəfər Günü ilə bağlı amnistiya elan edilməsi haqqında qanun layihəsini təsdiqləyib. Amnistiya aktı ümumilikdə 17 min nəfərə şamil edilir, 3 min nəfər məhkum isə cəzasının çəkilməmiş hissəsindən azad ediləcək.

Amnistiyanın tətbiq ediləcəyi şəxslərin sayına və əhatə etdiyi cinayət məsuliyyətindən və cəzadan azad etmə institutlarının dairəsinə görə bu akt ən böyük amnistiya olacaq. Vətən müharibəsində qazanılmış tarixi Zəfərin birinci ildönümü ilə bağlı bu Qələbənin memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilən Amnistiya aktı ümumilikdə 17 mindən çox şəxsə şamil ediləcək. Bunlardan azadlıqdan məhrum etmə yerlərində cəza çəkən 3 mindən çox şəxsin azad ediləcəyi, habelə 3 minədək şəxsin cəzalarının çəkilməmiş hissəsinin azaldılacağı proqnozlaşdırılır. Amnistiya aktı cəmiyyət tərəfindən də təqdir edilir.

Azərbaycan Respublikasının Prezidenti yanında əfv Məsələləri Komissiyasının üzvü, Konstitusiya Araşdırmalar Fondunun prezidenti Əlimməmməd Nuriyev deyib ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti hər zaman humanizm prinsipinə əsaslanır. Onun sözlərinə görə, 2003-ci ildən, İlham Əliyev prezidentlik fəaliyyətinə başlayandan indiyə qədər də belə sənəd imzalanıb ki, bununla da 4 min şəxs cəzadan azad edilib. Müstəqillik illərindən bugünədək 12 amnistiya aktı qəbul edilib: “Nəticədə 140 minə yaxın şəxs cinayət məsuliyyətindən və cəzadan azad edilib. Belə bir möhtəşəm gün ilə bağlı Amnistiya aktının gözlənilməsi təbiidir. Ötən il prezident qələbədən sonra, 2021-ci ilin mart ayında növbəti əfv sərəncamı imzalayıb. Bunun nəticəsində 500-dən çox şəxs cəzadan azad edildi və cəzaları azaldıldı”.

Ə. Nuriyev bildirir ki, Zəfər Günü ilə əlaqədar daha fərqli amnistiya aktı imzalanıb: ”Mənim fikrimcə, qələbənin tarixi əhəmiyyəti nəzərə alınaraq daha fərqli amnistiya aktı imzalanıb. Amnistiya aktının əhatə dairəsi daha geniş olur”.

Komissiya üzvünün sözlərinə görə, bu amnistiya aktından bəzi istisnalar olmaqla, hər kəsə bir pay düşə bilər: “Çünki, Amnistiya aktında təkcə cinayət məsuliyyətindən azad etmə yox, cəzanın azaldılması da mümkündür. Bu həm də cəzaçəkmə müəssisələrinin idarəedilməsi prosesini də asanlaşdıra bilər. Çünki məhkumların sayının azaldılması cəzaçəkmə müəssisələrində idarəetməyə təsir göstərir və islah meyillərini gücləndirir. Nəticədə məhkum olunmuş şəxslərdə amnistiya hər zaman bir motivasiya yaradır, onları pis əməllərdən çəkindirir”.

Ə. Nuriyev onu da bildirir ki, Amnistiya aktlarına xüsusi ağır cinayətlər törətmiş şəxslər düşmürlər. Onun sözlərinə görə, terror əməllərinə yol verənlər, vətənə xəyanət etmiş şəxslər, müharibə cinayətlərinə yol verənlər, insanlıq əleyhinə cinayət törədənlər, narkotacirlər amnistiya aktına düşmürlər. Komissiya üzvü deyir ki, bu kriminal durumu pisləşdirə bilər.

Amnistiya aktının layihəsinə əsasən, Vətən müharibəsində və Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş şəxslərin, habelə döyüş əməliyyatlarında həlak olmuş şəxslərin yaxın qohumlarının, Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslərin, Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı hərbi təxribat nəticəsində əlil və ya həlak olmuş şəxslərin yaxın qohumlarının, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslərin cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə görə, ehtiyatsızlıqdan cinayət törətmiş şəxslər, böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər, cəzanın çəkilməmiş hissəsi 6 aydan az olan az ağır və ya ilk dəfə ağır cinayət törətmiş şəxslər, cəzanın sonuna 1 ildən az müddət qalmış məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslər azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsindən azad ediləcəklər.

Həmçinin cərimə, ictimai işlər, islah işləri, hərbi xidmət üzrə məhdudlaşdırma, azadlığın məhdudlaşdırılması, intizam xarakterli hərbi hissədə saxlama və digər azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş şəxslərin cəzadan azad edilməsi nəzərdə tutulur.

Amnistiya aktı əsasında əsas və əlavə cəzanı çəkməkdən azad edilən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin üzərindən məhkumluğun götürülməsi gözlənilir.

Xatırladaq ki, ölkədə sonuncu dəfə Amnistiya aktı 2016-cı ildə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 28 May - Respublika günü münasibətilə verilib. Həmin Amnistiya aktı 10 min şəxsi əhatə edib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Qarabağın bərpası və qayıdış bu tarixdə baş tutacaq



***“İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı xərclər gələn ilin dövlət büdcəsi xərcləri arasında ön sıralarda dayanır”.***

Unikal.org-un xəbərinə görə, bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrin və İntizam komissiyasının birgə iclasında büdcə müzakirələrində deyib.

“Qarabağın bərpası və yenidən qurulması, soydaşlarımızın doğma torpaqlarına qaytarılması kimi şərəfli vəzifənin yerinə yetirilməsi 2022-ci ildə də təmin ediləcək və bu məqsədlə 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur”, - deyə o, qeyd edib.

# Baş Prokurorluq və DİN birgə məlumat yaydı

***Baş Prokurorluq və Daxili İşlər Nazirliyi Sumqayıtda mənzillərin birində aşkar olunmuş qadın meyiti ilə bağlı birgə məlumat yayıb.***



”Unikal” xəbər verir ki, məlumatda deyilir: ”Prokurorluq və polis əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Sumqayıt ərazisində qeyri-aşkar şəraitdə törədilmiş ağır cinayətin “isti izlərlə” açılması təmin edilib.

Belə ki, noyabrın 9-u saat 20 radələrində Sumqayıt şəhər sakini 1945-ci il təvəllüdlü Züleyxa Osmanovaya məxsus üzərində xəsarət izləri olan meyitin yaşadığı evdə aşkar edilməsi faktı ilə bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

İstintaq və əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilmişdir ki, Sumqayıt şəhər sakini Xanəhməd Rüstəmov oğurluq məqsədilə Züleyxa Osmanovanın evinə daxil olmuş, sonuncunun evdə olduğunu bildikdən sonra daş parçası ilə onun baş nahiyəsinə xəsarətlər yetirmiş, daha sonra isə boğaraq öldürüb.

Xanəhməd Rüstəmov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir”.

# Güclü külək Bakıda bu məktəblərə ziyan vurdu

***Hava şəraitinin kəskin dəyişməsi və güclü külək nəticəsində paytaxtın bəzi ümumi təhsil məktəblərinin (39, 113,167, 173, 186, 204, 260, 265, 298, 314, 319) dam örtüyü, pəncərə, fasad və hasarlarında bir sıra fəsadlar yaranıb, ağacların aşması, budaqların qırılması və xüsusi konstruksiyaların zədələnməsi halları müşahidə olunub.***

Bakı Şəhəri Təhsil İdarəsindən Unikal.org-a bildirib ki, müvafiq mütəxəssislər məktəblərdə olub, ilkin zəruri təhlükəsizlik tədbirlərinin təmin edilməsi ilə bağlı xəbərdarlıq edilib.

Qeyd olunub ki, hava şəraiti imkan verən kimi küləyin törətdiyi fəsadların aradan qaldırılması təmin ediləcək: ”Həmçinin paytaxtın ümumi təhsil məktəblərində şagirdlərin dərsə davamiyyət göstəricisi digər günlərə nisbətən qismən aşağı düşüb. Təhsilalanların və təhsilverənlərin təhlükəsizliyinin, təhsildə fasiləsizliyin təmin olunması diqqət mərkəzində saxlanılan əsas amillərdəndir”.

## İrəvan-Tbilisi-Bakı dəmir yolu xətti AÇILA BİLƏR

***"Hazırda işçi qrup yüklərin İrəvan-Tbilisi-Bakı dəmir yolu xətti ilə daşınmasını, oradan isə ya Rusiya, ya da digər bölgəyə aparılmasını müzakirə edir".***

Bu barədə Ermənistan Təhlükəsizlik Şurasının Baş katibi Armen Qriqoryan ölkənin İctimai Televiziyasına müsahibəsində deyib.

"Çox vacib məqam ondan ibarətdir ki, biz Azərbaycanın dəmir yolu infrastrukturundan istifadə edə biləcəyik. Bu çərçivədə konstruktiv çalışaraq 10 noyabr və 11 yanvar bəyanatlarında qeyd olunmuş bəndlərin tam icrasına və regionun blokadadan çıxmasına nail olacağıq".

## Qərb "Türk Hava Yolları"na qarşı sanksiyalar hazırlayır

***Belarus-Polşa sərhəddində yaşanan miqrant böhranı ilə bağlı Qərb ölkələri ciddi narahatlıq keçirir.***

Modern.az "Bloomberg" agentliyinə istinadən xəbər verir ki, ABŞ Yaxın Şərqdən olan qeyri-leqal miqrantların Rusiyanın "Aeroflot" və Türkiyənin "Türk Hava Yolları" aviaşirkətləri tərəfindən qəsdən Minskə gətirildiyini və buradan Belarus hakimiyyət orqanları vasitəsilə Polşa sərhədinə aparıldığını düşünür.

ABŞ, Böyük Britaniya və Avropa Birliyinin hazırladığı sanksiyalar barədə dekabrın əvvəllərində elan oluna bilər.

## COVID pasportu olmayan daha 169 nəfər toylara buraxılmadı

***Noyabrın 10-da Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 80 toy şənliyinin monitorinqini həyata keçirib.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən xəbərə görə, monitorinq 66 şadlıq sarayında, 14 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə 14 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub. 169 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

## Ötən gün 4 koronavirus xəstəsi saxlanılıb

***Noyabrın 10-da polis əməkdaşları tərəfindən respublika ərazisində 4 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıblar.***

Daxili İşlər Nazirliyindən verilən xəbərə görə, polis əməkdaşları COVİD-19 virusuna yoluxaraq ev şəraitində müalicədə olmasına baxmayaraq yaşadığı evi tərk etmiş həmin şəxslərlə izahedici söhbətlər aparıb, tibbi prosedurları gözləməklə yaşadıqları evlərə qaytarıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

## Meksika mətbuatında Azərbaycanın qələbəsi işıqlandırılıb

***Meksikanın nüfuzlu KİV-lərindən olan "24 horas" gündəlik qəzetində bu ölkədəki səfirimiz Məmməd Talıbovun Azərbaycanın Vətən müharibəsindəki qələbəsi və işğaldan azad edilmiş ərazilərdə görülən işlər barədə müsahibəsi dərc olunub.***

Azərbaycanın Meksikadakı səfirliyindən verilən məlumata görə, müsahibədə ilk olaraq erməni işğalının tarixi, Vətən müharibəsinin yekunları və işğal faktına son qoyulması haqda məlumat verilir.

Sonra işğal müddətində erməni tərəfinin törətdiyi müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər, habelə azərbaycanlı məcburi köçkünlərin öz evlərinə qayıdışını ləngitmək üçün yaratdığı maneələr, bu xüsusda bölgədəki kütləvi dağıntılar və minalama haqda danışılır.

Yazıda həmçinin Şuşa şəhərinin Azərbaycanın tarixi və mədəniyyətindəki xüsusi əhəmiyyəti haqda məlumat verilir, ölkəmiz tərəfindən Şuşada və digər azad olunmuş bölgələrdə aparılan intensiv yenidənqurma işlərindən bəhs edilir.

# Dövlət rüsumları niyə dəyişdirilir - TƏHLİL

### Əlavə 100 milyon manat sosial artımlara yönəldilə bilər



***Dövlət büdcəsinin gəlir mənbələrindən biri də dövlət rüsumlarıdır. Dövlət rüsumu - dövlət və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumlar tərəfindən hakimiyyət səlahiyyətlərinin icrası zamanı göstərilən və hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hərəkətlərə (sənədlərin tərtibi, qeydiyyatı, razılıqların verilməsi və sair) görə ödənilən haqdır. Bu ödəniş müəyyən dövrdən bir yaranmış real vəziyyətə uyğun olaraq artırıla, yaxud azaldıla bilər. Bunda müxtəlif iqtisadi və siyasi amillər rol oynayır.***

Ölkəmizdə növbəti ildən 266 sayda dövlət rüsumlarının məbləğlərinə yenidən baxılaraq, artırılması zərurəti yaranıb. "Dövlət rüsumu haqqında" qanuna dəyişikliklərə əsasən, bəzi dövlət rüsumları yenidən müəyyən ediləcək.

Hətta yeni dövlət rüsumlarının da tədbiq olunacağı gözləntisi var. Bu, rəsmi olaraq mövcud məbləğlərin maya dəyərdən aşağı olması ilə izah edilir. Qeyd olunur ki, bir sıra dövlət rüsumları 15 il bundan qabaq müəyyən edilib və o zamandan dəyişdirilməyib. Ötən müddət ərzində baş vermiş inflyasiya və digər iqtisadi proseslərlə əlaqədar dövlət rüsumlarının məbləğləri maya dəyərindən aşağı düşüb.

Bəs əsl səbəb nədədir?! Dövlət rüsumlarının qaldırılması doğrudanmı təkcə onların maya dəyərləri ilə uzlaşmaması səbəbindən irəli gəlir? Belə olan təqdirdə bu rüsumlara indiyədək niyə baxılmırdı?

Məsələ bundadır ki, dövlət rüsumlarının sayının və məbləğlərinin artırılması istənilən halda ilk növbədə dövlət büdcəsinə gəliri artırmaq məqsədi daşıyır. Dövlət büdcəsinin gəlir mənbələrindən biri məhz rüsumlardır. Növbəti il üçün Azərbaycanın dövlət büdcəsinin xərcləri isə çoxalıb. Əhalinin sosial rifahının qorunması sahəsində görüləcək əlavə tədbirlər də bunda sonuncu rolu oynamır.

Sual oluna bilər ki, dövlətin bunun üçün məgər, müvafiq maliyyə gücü və imkanları yoxdurmu? Dövlət rüsumlarının artırılmasından nə qədər vəsait daxil olacaq ki, maaş, pensiya, müavinət və təqaüdlərin artırılmasına yardım etsin?

Məsələ bundadır ki, dövlətin maliyyə ehtiyatları nə qədər geniş olsa da, 2022-ci ilin dövlət büdcəsi layihələrinin müqayisəli təhlili neft gəlirlərinin yenə əsas mənbə və dayaq rolu oynadığını göstərir. Belə ki, dövlət başçımızın sərəncamından əvvəlki layihədə məsələn, Dövlət Neft Fondundan (ARDNF) transfertin həcmi 11.860 milyard manat məbləğində nəzərdə tutulurdusa, sonuncuda bu məbləğ 850 milyon manat artırılaraq, 12.710 milyarda yüksəldilib. Və yaxud, əvvəlcə növbəti ildə büdcədə neftin dünya bazar qiyməti 45 ABŞ dolları səviyyəsində götürülmüşdüsə, sonrakı layihədə 50 dollar təsbit edilib.

Bəli, təkrar edirəm, dövlətimizin kifayət qədər maliyyə gücü və artımlara getmək üçün imkanları mövcuddur. Əhalinin gəlirlərini artırmaq üçün hər cür şərait və imkan var. Həm cari ilin dövlət büdcəsi ilin əvvəlindən bəri profisitlə icra olunur, həm vergi və gömrük rüsumları üzrə yığım artıqlaması ilə yerinə yetirilir, həm də il başlayandan bəri neftin dünya bazar qiymətləri əlverişli vəziyyətdə olub və olaraq da qalır. Təkcə bir faktı qeyd edim ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Dövlət Gömrük Komitəsi tərəfindən cari ilin ilk 9 ayı ərzində mədaxilin artıqlaması ilə yerinə yetirilməsi, həmçinin dövlət büdcəsi kəsirinin maliyyələşməsi üçün nəzərdə tutulan mənbələrdən istifadə nəticəsində Neft Fondundan dövlət büdcəsinə transfert üzrə 7 milyard 309,7 milyon manat və ya planlaşdırılandan 20,1 faiz az vəsait daxil edilib.

Bununla belə, neft gəlirlərindən asılılıq böyükdür. Və bunu Prezidentin sərəncamından sonra növbəti ilin dövlət büdcəsi layihəsində ARDNF-dən transfertin əvvəl nəzərdə tutulandan 850 milyon manat məbləğində artırılması faktı da sübut edir. Halbuki, 2021-ci ilin ilk 9 ayında Dövlət Vergi Xidmətinin xəttilə büdcəyə 6 milyard 354,4 milyon manat vəsait daxil olmaqla bu həm, proqnoza nisbətən 1 milyard 66,7 milyon manat və ya 20,2 faiz çox təşkil edib, həm də sözügedən məbləğin 73,9 faizi və yaxud 4 milyard 692,8 milyon manatı qeyri-neft sektorundan daxil olub.

Dövlət büdcəsinə nəzərdə tutulandan artıq gəlirlərin daxil olması əhalinin sosial və iqtisadi cəhətdən müdafiəsini daha da yaxşılaşdırmaq üçün əvəzolunmaz mənbə sayılır. Ancaq sözügedən tendensiya gərək ardıcıl və dayanıqlı xarakter daşısın ki, artımlara inamla gedilsin. Dövlət rüsumları üzrə mənbə isə elədir ki, iqtisadi aktivlik passiv vəziyyətdə olduqda belə nisbətən dayanıqlı və axıcı əhəmiyyət kəsb edir. Yəni, rüsumları qaldırmaqla büdcəyə mədaxili istənilən halda artırmaq mümkündür.

Odur ki, rüsumlara baxılması və dəyişdirilməsi növbəti ildə artacaq xərcləri qarşılamaq üçün əlavə bir kömək və vasitə mənası baxımından məqsədəuyğun hesab edilir. Amma sözsüz, bir şərtlə ki, bəzi təyinatlı dövlət rüsumları inflyasiya prosesi göstəricilərindən yüksək həddə artırılmasın və ümumiyyətlə, rüsum dərəcələri mövcud iqtisadi imkanlar çərçivəsində dəyişdirilsin.

Yeri gəlmişkən, ilkin hesablamalara görə, sözügedən artımlardan büdcəyə əlavə olaraq 100 milyon manatdan çox əlavə vəsait daxil olmalıdır ki, bu, böyük bir rəqəm olmasa da, hər halda, mühüm dəstəkdir.

***Pərviz Heydərov***

# “Qarabağda sülh: ümid və çağırışlar. Fransanın rolu nədir?” mövzusunda debat

***Parisdə Azərbaycanın Fransadakı səfirliyi və Azərbaycanın Dostları Assosiasiyasını birgə təşkilatçılığı ilə münaqişədən sonrakı mərhələyə həsr edilmiş “Qarabağda sülh: ümid və çağırışlar. Fransanın rolu nədir?” mövzusunda debat keçirilib.***

DebatdaAzərbaycanın qələbəsi ilə başa çatmış Vətən müharibəsindən sonra regionda sülh, təhlükəsizlik və əməkdaşlıq perspektivləri, Fransanın bu istiqamətdə görə biləcəyi işlərə dair fikir mübadiləsi və müzakirələr aparılıb.

Tədbirdə Azərbaycanın Fransadakı fövqəladə və səlahiyyətli səfiri Rəhman Mustafayev, Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov, deputat Eldar Quliyev, Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jerom Lamber, eləcə də Fransa Milli Assosiasiyasında Fransa-Azərbaycan dostluq qrupunun üzvləri, digər deputat və senatorlar, KİV rəhbərləri, Fransa Milli Assambleyası administrasiyasının üzvü, mədəniyyət xadimləri iştirak ediblər.

Azərbaycanın Dostları Assosiasiyasının prezidenti, deputat Jerom Lamber Qarabağ müharibəsinə, Fransa-Azərbaycan münasibətlərinə toxunub. Bildirib ki, Azərbaycanın yaratdığı sülhün davamlı olmasına beynəlxalq ictimaiyyət də töhfə verməlidir. Bu gün azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına qayıda bilmədiyini, onların erməni minaları ilə üzləşdiklərini xatırladıb.

“Biz Azərbaycanın dostlarıyıq, dostu olaraq qalacağıq. Çalışacağıq ki, fransız şirkətləri də azad olunmuş torpaqlarda quruculuq işlərinə töhfə versinlər”, - deyə J. Lamber azərbaycanlı deputatlara ölkəmizin sadiq dostları olduqlarını bildirib. Bir il sonra müharibənin başa çatması və yeni mərhələnin başlanması ilə bağlı müzakirələrin təşkilinin əhəmiyyətinə toxunub.

Səfir Rəhman Mustafayev çıxışında münaqişənin həll edildiyini, münaqişədən sonrakı dövrdə bəzi çətinliklərin olduğunu deyərək, məcburi köçkünlərimizin erməni minalarına görə hələ də doğma evlərinə qayıda bilmədiklərini vurğulayıb. Münaqişədən sonrakı dövrdə qarşıda duran prioritetlərdən danışıb.

Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov ötən il erməni hərbi təxribatlarına cavab olaraq Ordumuzun əks-hücum əməliyyatına başlamalı olduğunu deyib. Bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz sayəsində ərazi bütövlüyümüz bərpa olunub. Ordumuzun Qələbəsi tarixi ədaləti bərpa edib. Ermənistanın işğal etdiyi ərazilərimizi 30 il ərzində yerləyeksan etməsindən, bütün infrasturkturu, evləri dağıtmasından, azad edilmiş ərazilərimizdə dövlətimiz tərəfindən aparılan quruculuq işlərindən danışıb.

Bildirib ki, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində əksini tapıb. Ermənilərin heç bir həyat əlaməti qoymadıqları torpaqlarımızda yenidənqurma işlərinin başladığını deyib. Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması, “Araz vadisi iqtisadi zona” Sənaye Parkı, Zəngəzur dəhlizinin təməlinin qoyulması haqqında məlumat verib. Vurğulayıb ki, Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə ekspertlər qrupu işğaldan azad edilmiş ərazilərimizdə ermənilər tərəfindən dağıdılan tarixi, dini və mədəniyyət abidələrinin bərpası ilə bağlı işlərə başlayıb. O, Azərbaycanın mədəniyyət beşiyi olan Şuşada aparılan bərpa işlərindən danışıb. Deputat regionda sülhün, sabitliyin bərqərar olmasında Fransanın roluna toxunub. O, ermənilərin törətdiyi dağıntıları öz gözləri ilə görmələri üçün fransız deputatları ölkəmizə dəvət edib.

Ağdama, Füzuliyə, eləcə də bir neçə gün əvvəl Şuşaya səfər etmiş fransız deputatlar azad olunmuş ərazilərimizdə işğal illərində ermənilər tərəfindən törədilmiş vəhşiliklərlə bağlı gördüklərini, təəssüratlarını bölüşüblər.

Bildirilib ki, Ermənistan hökuməti, eləcə də digər aidiyyəti ölkələr, xüsusilə də ATƏT-in Minsk qrupuna üzv dövlətlər regionda yaranmış reallığı qəbul etməli və öz fəaliyyətlərini bu reallığa uyğunlaşdırmalıdırlar.

Qeyd edək ki, Fransaya səfər çərçivəsində Milli Məclisin Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Soltan Məmmədov Fransa Milli Assambleyasında Fransa-Azərbaycan Dostluq qrupunun vitse-prezidenti Jerom Lamber və Fransa Senatının Fransa-Qafqaz dostluq qrupunun sədri Alen Uperlə də görüşüb. Azərbaycanın Fransadakı fövqəladə və səlahiyyətli səfiri Rəhman Mustafayevin də iştirak etdiyi görüşdə Milli Məclislə Fransa Milli Assambleyası və Senatı arasında əməkdaşlığın mümkün inkişaf istiqamətləri ilə bağlı müzakirələr aparılıb. Gələcəkdə hər iki ölkənin parlament üzvlərinin qarşılıqlı səfərlərinin təşkili haqqında fikir mübadiləsi olub. Soltan Məmmədov Milli Assambleya və Senat üzvlərinin işğaldan azad olunmuş ərazilərə səfərlərinin təşkil olunmasının bölgədə vəziyyət haqqında tam aydın təsəvvür əldə etmək baxımından vacib olduğunu qeyd edib. Görüş zamanı Fransa Milli Assambleyasında Fransa-Azərbaycan Dostluq qrupunun fəaliyyəti ilə bağlı ideya və təkliflər səsləndirilib.



# Qürur tariximizə şərəflə yazılan ad

***Şəhid Ramiq Teymur oğlu Tağıyev qısa ömür yaşadı. Daha dəqiq desək işıqlı dünyaya gəlib getməyi bənövşə ömrü qədər çəkdi. Yəni 22 ildə bir insan Vətəninə, xalqına nə qədər xidmət edə bilərsə Ramiq onu etdi, bəlkə mümkün olandan daha artıq. Ən əsası 44 günlük İkinci Qarabağ müharibəsində isə Vətənin zəfər qalasına döndü. Torpaq naminə haqq savaşımızda yağı düşmənin bağrına dağ basmaqla xalqa öyünməli oğul oldu Ramiq. Həm də canından keçməklə doğulub boya-başa çatdığı Lerik rayonundakı Kəlvəz kəndini igidlər diyarı kimi bütün Azərbaycan sevdirdi.***

Həyatı dərk edən gündən Ramiq Vətəninə bağlanır. Elə 2017-ci ildə ordu sıralarına yola düşəndə amalı Vətən torpağının bir parçasına qəsd etmiş düşmənin başını əzmək olur. Xüsusi Təyinatlı Qüvvələrin sırasında əsgər paltarı geydiyi andan qəhrəmanlığa boy verən arzusuna can atır. Ramiq ilk gündən müqəddəsliyinə tapındığı Azərbaycan qarşısında öz borcunu ləyaqətlə, mərdliklə yerinə yetirir. Vətənpərvərliyi, təlimlər zamanı qeyri-adi bacarıq və qabiliyyəti, yoldaşa sədaqəti ona hörmət gətirir. Yurdumuzun azadlığı, ərazimizin bütövlüyü bu Vətən sevdalısının əsas arzusuna dönür. Əsgər yoldaşlarına da həmişə deyir:” Vətən hər şeydən əzizdir, onu düşməndən təmizləmək hər oğlun müqəddəs işi olmalıdır.”

Əsgərlikdən üzüağ dönən Ramiq evdə heç cür qərar tuta bilmir. Axı Vətən torpaqları düşmən tapdağında idi. Yenidən ordu sıralarına yazılır. Xüsusi Təyinatlı Qüvvələrin kiçik giziri rütbəsində Vətənin keşiyində durmaqla məqamında onun torpağına-daşına müsəlləh əsgər olmağa and içir. Belə də olur. 2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsi onu bir başa döyüşən cəbhəyə aparır. Xüsusi Təyinatlı Qüvvələrin giziri ilk gündən qələbəyə böyük ümid bəsləyir. Məhz bu inamla da erməni faşistləri ilə neçə-neçə ölüm-dirim savaşından zəfərlə çıxır. Füzulinin, Cəbrayılın, Xocavəndin, Qubadlının azad etməsində xüsusi hünər göstərir. Şuşaya qədər min əzab-əziyyətli ölümlü yollar keçsə də, Vətəninə olan məhəbbəti azalmır, qəlbindəki düşmənə qəzəb tufanı daha da alovlanır. 8 noyabrda şəhidlik zirvəsinə ucalanda artıq arzuladığı Vətən torpaqlarının azadlığını görür. Torpağı qanı ilə Vətən edən Lerikin igid oğlunu doğma kəndi Kəlvəzə gətirir, burada sevdalandığı Vətən adlı sevgilisinin sinəsinə əbədi baş qoyur. Bu ilahi sevgi Ramiq Tağıyeva böyük bir xalqın ürəyində yaşamaq xoşbəxtliyini bəxş edir. Dövlət də ölümündən sonra qəhrəman Vətən oğlunu ermənilərə qarşı haqq savaşımızda göstərdiyi şəxsi igidliyinə görə “Azərbaycan Bayrağı” ordeninə, “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə” medallarına layiq görür.

Ramiq Tağıyev qısa ömrünü belə şərəfli yaşadı. Vətən sevgisinin ona gətirdiyi ucalığı heç bir qüvvə qəlblərdən silib aparmaz, həyat durduqca o, da günəş müqəddəsliyinə dönüb var olacaqdır.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Zəfər Gününə həsr olunmuş guşələr yaradılıb

***Almaniyanın Bremen şəhərində fəaliyyət göstərən “Azerbaijan Society Team”- in təşəbbüsü və Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi ilə Vətən müharibəsində qazandığımız Şanlı Qələbəyə həsr olunan Zəfər Günü münasibətilə Almaniyanın Bremen şəhərində, Böyük Britaniyanın London şəhərində və Azərbaycanda yerləşən “Azərbaycan Diplomatik Akademiyası” -da (ADA) guşələr yaradılmışdır.***

Azərbaycanın Vətən müharibəsində əldə etdiyi şanlı Zəfərin birinci ildönümü münasibətilə “8 November - Victory Day” adlı layihə çərçivəsində yaradılmış guşələrdə 1 rolap və 1 poster yerləşdirərək orada yaşayan xarici vətəndaşlara ”Dəmir Yumruq” əməliyyatı və ölkəmizin əldə etdiyi Şanlı Qələbə haqqında geniş məlumatlar verilmişdir.

Həyata keçirilmiş layihə çərçivəsində yaradılmış guşələrlə yanaşı igid şəhidimiz Xudayarın səsləndirdiyi ifa və digər qələbə ruhlu musiqilərimiz səsləndirilmişdir.

“Azerbaijan Society Team”- in sosial şəbəkə hesablarından əlavə məlumat əldə edə bilərsiniz.

## İsmayıl Dəmir: "Hürkuş"dan NATO üzvləri də istifadə edəcək"

***Türkiyə istehsalı olan "Hürkuş" təlim-məşq təyyarələri NATO-ya üzv ölkələr üçün etibarlı sayılıb və alyansa daxil olan dövlətlər ondan istifadə edə biləcəklər".***

"Report" "TRT Haber"ə istinadən xəbər verir ki, bunu Türkiyənin Müdafiə Sənayesi İdarəsinin rəhbəri İsmayıl Dəmir bildirib.

Onun sözlərinə görə, "Hürkuş" NATO ölkələrinə ixrac ediləcək: "Ölkələr ordularında bu təyyarədən istifadə edə biləcəklər. Milli döyüş təyyarəsini mümkün qədər daha tez istehsal etmək üçün bütün gücümüzlə çalışırıq. Son illərdəki fəaliyyətimiz nəticəsində təcrübəli insan resurslarımız və mühəndislərimiz artıb. Belə bir şəraitdə dünyada çox iddialı bir işə başladıq. Ölkələrin çoxunda belə layihə yoxdur. Hədəfimiz döyüş təyyarələrini 2023-cü ildə anqara çıxarmaqdır. İlk uçuşumuzu 2025-ci ildə həyata keçirmək istəyirik. İnşallah təyyarəmizi sınaqdan keçirəcəyik. Həm Türkiyədən, həm də dünyadan gələn insan resurslarından istifadə etmək istəyirik. Milli döyüş təyyarəsi 5-ci nəsil məsafədən zərbə endirmə qabiliyyəti, elektron təchizatı, müasir radar sistemləri ilə təchiz ediləcək. Bütün elementlər təyyarəmizin içində olacaq. Onların ən qısa zamanda Türkiyə Silahlı Qüvvələri inventarına daxil olmasını planlaşdırırıq. Bəziləri pulla ala bilməyəcəyiniz texnologiyalardır. Biz bu istiqamətdə fəaliyyətə çoxdan başlamışıq və davam etdiririk".

Nazir deyib ki, "F-35"in maliyyə dəyəri 60 milyard dollardır: "Milli qırıcı layihəsi isə 10 milyard dollara başa gələcək. Yerli və milli döyüş təyyarələrinin ilk prototipi 2022-ci ildə hazır olacaq. Onun kütləvi istehsalına isə 2028-ci ildə başlamağı planlaşdırırıq. 2030-cu ildə Türkiyənin "F-35" və "F-16"ya ehtiyacı olmayacaq".

## İrəvanda gərginlik artır

### Mitinqlər bərpa olunub, hakimiyyəti devirmək çağırışları səslənir

***2020-ci il 10 noyabr üçtərəfli Bəyannaməsində nəzərdə tutulan məsələlər həyata keçirildikcə Ermənistandakı revanşist qüvvələr hökumətə daha güclü təzyiq göstərməyə çalışırlar. Erməni mediası həmin qüvvələrin çağırışı ilə bu gün Respublika meydanında keçirilən etiraz aksiyası zamanı gərginlik yaşandığını bildirib.***

AzVision.az erməni mediasına istinadən xəbər verir ki, "Nikol satqındır" şüarını səsləndirən bir qrup iştirtakçı hərəkəti dayandırmağa cəhd göstərsə də, polis onları yolun hərəkət hissəsindən sıxışdırıb çıxarmaqla yanaşı, hökumət binasına çox yaxınlaşmağa da imkan verməyib. Nəticədə basabas və əlbəyaxa çəkişmə yaranıb.

Dünən Ermənistan parlamentindəki "Ayastan" müxalif fraksiyasının deputatı Qeqam Manukyan öz "Facebook" səhifəsində "Qarşıdurma üçün səhər saat 11:00-da Respublika meydanına gəlin. Kim gələcək? Gözləyirik. Bu gün hakimiyyət Gorus-Qafan yolunun Azərbaycanın nəzarəti altında olduğunu rəsmi şəkildə bəyan etdi. Hələ üstəlik də, hökumətin üzvü bu gün Sünikə getdi və dolama yolun tikintisinin başa çatığını açıqladı, düşmən isə dərhal trassı bağladı. Dözəcəyik? Bunun cavabını kim verəcək? Hökumət? Səhər hökumətin növbəti iclası olacaq və bizim sual vermək hüququmuz var. Biz hökumətdən cavab tələb edəcəyik" çağırışını edib.

Manukyan bu müraciəti Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın gecəyarısı Azərbaycanını Qaqfan-Gorus trassında nəzarət-buraxılış məntəqəsi quracağı barədə verdiyi bəyanatadan sonra paylaşıb. Bir müddət əvvəl keçirilən mitinqdə isə Manukyanın üzvü olduğu "Ayastan" blokunun rəhbəri, Ermənistanın keçmiş prezidenti Robert Köçəryan ya seçkilər, ya da ki, barrikadalar yolu ilə hakimiyyəti devirilməsinin bir neçə həftənin işi olduğunu deyib.

Bu ittihamların qarşılığında hakim "Vətəndaş müqaviləsi" fraksiyasının üzvü Ovik Ağazaryan bildirib ki, qoy müxalifət siyasi proseslərdə iştirak etsin və əgər xalq istəyirsə hakimiyyətə gəlsin.

- Əgər müxalifət mitinqlər vasitəsilə vaxtından əvvəl seçkilər məsələsini qaldırmaq istəyirsə qoy bunu etsin, amma barrikadalarla hədə-qorxu gəlməsin. Qoy müxalifət özündə cəsarət tapıb desin - əgər onlar hakimiyyətə gəlsələr, 9 noyabr sənədinin etibarsız olduğunu tanıyacaqlarmı? Bəlkə onlar bu sənədin həmin vaxt qəbul edilən yeganə düzgün sənəd olduğu ilə razılaşacaqlar? Əgər müharibə vaxtı çatışmazlıqlar olubsa, qoy müxalifət bunu üzə çıxratsın. İstəyirlər hakkimiyyətə gəlib sonra bunu etsinlər, onların məqsədi vətənə xidmət etməkdir, yoxsa hakimiyyətə gəlmək? Əgər məqsəd vətənə xidmət etməkdirsə, qoy nə baş verdiyin desinlər, - Ovik Ağazaryan vurğulayıb.

*Sahil İsgəndərov*

**ELAN**

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Qurbanov Ramin Mahmud oğlua verilmiş AA 08209 nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.**

## Ermənistanın kapitulyasiyası - bitən münaqişə, yersiz status söhbətləri

***Bütün müharibələrdən sonra danışıqlar başlayır. Dialoq və diplomatik danışıqlar münaqişələrin bitməsindən, dayanmasından xəbər verir. Belə halda sülhün yaranacağına ümid çoxalır.***

2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiyanın dövlət başçısı Vladimir Putin arasında imzalanan üçtərəfli bəyanat regionda münaqişənin birinin bitməsinin başlanğıcı, Cənubi Qafqazda yeni şəraitin yaranmasının əsası, habelə təhlükəsizliyin təhdid edilməsinin qarşısının alınması istiqamətində atılan faydalı addım idi. Tərəflər arasında 9 maddəlik sənəddə 3 rayonun - Laçın, Ağdam və Kəlbəcərin döyüşsüz Azərbaycana qaytarılması məsələsi də var. Bu çox əhəmiyyətli müddəa sayılır. Məlumatlara görə, Ermənistan həmin istiqamətdə çox böyük hərbi qüvvə yığıbmış. Çünki bu üç rayon strateji bölgələrdəndir. Laçından dəhliz keçdiyi, Kəlbəcərdəki yüksəkliklərdən Ermənistan və Azərbaycan ərazilərinə nəzarət mümkün olduğu, Ağdamdan isə Xankəndi və Şuşaya yollar keçdiyi üçün işğalçı həmin rayonlar istiqamətində öz qüvvələrini daha çox cəmləyibmiş. Ermənistan həmin ərazilərdən Azərbaycan Ordusunu qarşılayıb döyüşdə dönüş yaratmaq niyyətində idi. Bu isə həmin bölgələrdə döyüşlərin daha şiddətli olacağından xəbər verirdi. Bu həm də hər iki tərəfdən çoxlu sayda insan itkisi ilə nəticələnə bilərdi. Ona görə də həmin rayonların atəş açılmadan Azərbaycanın nəzarətinə qaytarılması bəyanatın uğurlarından sayıla bilər.

Sənəddə Rusiya sülhməramlılarının müvəqqəti olaraq yerləşməsi və mandatına dair müddəalar da var: "Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır". Bu maddədə erməni silahlıların çıxarılmasının vurğulanması da sənədin uğurlu məqamlarındandır. Bundan başqa, regionda hər hansı silahlı qüvvələrin yaradılması və ya formalaşdırılmasına işarə belə yoxdur. Bu isə separatçıların tör-töküntülərinin Rusiyaya qarşı çıxışı kimi dəyərləndirilə bilər. Burada həm də Rusiya sülhməramlılarının qalma müddəti açıq-aydın göstərilib. Bu, onların Azərbaycanda həmişəlik qalacağı ilə bağlı məsələyə də aydınlıq gətirir. Sənəddə açıq-aydın göstərilir ki, müddət bitəndən sonra tərəflərdən birinin uzadılmasını istəməzsə, rusiyalı hərbçilər müvəqqəti yerləşdikləri Azərbaycan ərazisini tərk edəcəklər.

Bəyanatın uğurlu tərəflərindən biri atəşkəsə nəzarət etmək üçün Türkiyə və Rusiya hərbçilərinin birgə monitorinq mərkəzi yaratmasıdır. Bu həm də Cənubi Qafqazda Türkiyə hərbçilərinə beynəlxalq ictimaiyyətin etimad göstərməsi deməkdir.

Bəyanatın 7-ci maddəsində məcburi köçkün və qaçqınların qayıtması məsələsi öz əksini tapıb. Bu isə Azərbaycan ərazisində münaqişə və hərbi əməliyyatların bitdiyinin göstəricisi anlamına gəlir.

Sənəddə vurğulanan başlıca məsələlərdən biri də Zəngəzur dəhlizinin açılmasıdır: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək". Bu bəyanat göstəriciləri ilə işğalçı Ermənistanın kapitulyasiya aktıdır. Tarixdə işğalçılar həmişə uduzublar. Faşist Almaniyasının imzaladığı kapitulyasiya aktı tarixdən hər kəsə məlumdur. Həmin sənədə əsasən, Almaniyaya hətta ordu saxlamaq belə qadağan edildi.



Bundan başqa, Almaniya iki yerə parçalandı. Bu ölkə soyqırımı törətmiş faşistlərin əvəzinə yəhudilərə təzminat ödədi. Dövlətin başçısı olmuş Adolf Hitler isə mühakimədən qorxaraq intihar etdi və s.

Nikol Paşinyanın imzaladığı kapitulyasiya aktına əsasən, Azərbaycan torpaqlarının işğalından iştirak etmiş Ermənistanın bütün rəhbərləri, keçmiş prezidentlər Levon Ter-Petrosyan, Robert Koçaryan, Serj Sarqsyan, müdafiə nazirləri Seyran Ohanyan, habelə separatçı rejimin başçıları Arkadi Qukasyan, Bako Saakyan və Araik Arutyunyan törətdikləri cinayətlərə, dinc əhaliyə qarşı vəhşiliklərin təşkilinə görə beynəlxalq məhkəməyə verilməlidir. Bu, müasir dövrdə işğalçının və işğalçılığın aqibəti baxımından çoxlarına dərs olar.

44 günlük müharibədə müasir hərbin bir çox yenilikləri, taktikaları tətbiq edildi. Bu və başqa məsələlər tarixdə araşdırlacaq. Kapituliyasiya aktı münaqişənin bitdiyinin, statusun isə birdəfəlik gündəlikdən çıxdığının göstəricisidir. Odur ki, belə bir şəraitdə münaqişə və statusdan danışmaq artıq yersiz iddiaya çevrildi.

*Sədrəddin İsmayılov*

# Futbolumuzda biabırçılıq: köklü klubumuz üçün 1 manatdan pul yığdılar



***Azərbaycan futbolu ilə bağlı biabırçılıqlar bir-birini əvəz etməkdədir.***

2021/22 mövsümü yenicə start götürən Region Liqasında bənzəri görünməyən daha bir hadisə baş verib.

Əldə etdiyimiz məlumata görə, Şimal-Qərb regionu üzrə II turda keçirilən "Karvan" - "Göyəzən" oyunundan əvvəl stadiona toplaşan azarkeşlərdən pul yığılıb. Məsələ burasındadır ki, həyatda qalması üçün "Karvan"a yardım kompaniyası çərçivəsində yevlaxlılardan hərəyə 1 manatdan dəstək olmaq xahiş edilib. Ancaq heç kim buna məcbur edilməyib, proses könüllü şəkildə aparılıb.

Məlumatı əməkdaşımızla söhbətində "Karvan"ın baş məşqçisi Kənan Kərimov da təsdiqləyib. O, komandanı ayaqda saxlamaq üçün başqa variantların olmadığını söyləyib: "Ümumiyyətlə, bank hesabı açmışıq, bir çox iş adamlarına müraciət etmişik. Komandanı saxlamaq böyük vəsait tələb edir. Şəhərə afişalar vuruldu ki, insanların məlumatı olsun. Ən azı sevinməlidirlər ki, mənim sayəmdə futbol Yevlaxa qayıdıb. Oyun zamanı isə stadionda elə böyük məbləğ yığılmadı. Afişada da qeyd olunub ki, bu kompaniya "Karvan"a dəstək üçün aparılır. Bəzi insanlar bunu səhv başa düşdülər".

Kərimov toplanan pulun məbləğini də açıqlayıb: "Orada cəmi 116 manat pul yığıldı. Goranboydan, Mingəçevirdən, Ləkidən gələn futbolçularımız var. Toplanan pulun üstünü də düzəldib yol xərci kimi onlara verdim. Bunu ondan ötrü eləmişik ki, heç olmasa digər rayonlardan gələn futbolçuların yol pulunu verə bilək. Yevlaxlı futbolçuların isə cibinə hələ bir manat da girməyib".

Qeyd edək ki, vaxtilə Premyer Liqada çıxış edən "Karvan" 2004/05 mövsümündə bürünc, növbəti mövsüm isə gümüş mükafat qazanıb. Köklü klubumuz 2006/07 mövsümündə UEFA Kubokunun (indiki Avropa Liqasının) I təsnifat mərhələsində Slovakiya klubu "Spartak"ı (Trnava) üstələməklə bu turnirdə mərhələ adlayan ilk Azərbaycan klubu olub.

***Ruslan Sadıqov***

# "Qəbələ" kəllə vuran futbolçusunu əvəzedici heyətə göndərdi

***Birinci divizionun V turuna "Səbail"lə "Qəbələ"nin ikinci komandalarının oyunu ilə yekun vurulacaq.***

Apasport.az saytının məlumatına görə, "qırmızı-qaralar"ın əsas heyətinin bir üzvü səfər matçında meydana çıxacaq.

Bu, yarımmüdafiəçi Ehtiram Şahverdiyevdir. Premyer Liqanın VII turunda "Zirə" ilə qarşılaşmadan sonra rəqibin müdafiəçisi Dmitrios Çantaikasa kəllə vurduğu üçün 4 oyunluq diskvalifikasiyaya məruz qalan 25 yaşlı futbolçu əvəzedici heyətə göndərilib.

Qeyd edək ki, "Səbail-2" - "Qəbələ-2" oyunu saat 15:00-da başlayacaq.



# Qovulduqlarına görə milyonlar qazananlar - TOP-10



***Britaniyanın "The Sun" nəşri baş məşqçisi müxtəlif illərdə baş məşqçi vəzifəsindən qovulduqlarına görə ən çox təzminat alan mütəxəssislərin siyahısını tərtib edib.***

Qol.az xəbər verir ki, bu günlərdə "Barselona"dan istefaya göndərilən Ronald Kuman ilk 10-luğa daxil ola bilib. O, vaxtından əvvəl istefaya göndərildiyi üçün Kataloniya təmsilçisindən 11,7 milyon avro təzminat alacaq.

Konte ketçup və mayonezi qadağan etdi

Reytinqə isə italiyalı Antonio Konte başçılıq edir.

1. Antonio Konte - "Çelsi", 30,6 milyon avro
2. Joze Mourinyo - "Mançester Yunayted", 22,9 milyon avro (2018-ci il)
3. Joze Mourinyo - "Çelsi", 21 milyon avro (2007-ci il)
4. Loran Blan - PSJ, 19,8 milyon avro
5. Luis Felipe Skolari - "Çelsi", 15,9 milyon avro
6. Fabio Kapello - Rusiya Futbol İttifaqı, 15,6 milyon avro
7. Maurisio Poçettuno - "Tottenhem", 14,6 milyon avro
8. Andre-Villaş-Boaş - "Çelsi", 14 milyon avro
9. Roberto di Matteo - "Çelsi", 12,5 milyon avro
10. Ronald Kuman - "Barselona", 11,7 milyon avro

Beləliklə, siyahıdan da göründüyü kimi, son 14 ildə baş məşqçiləri istefaya göndərdiyinə görə onlara ən çox (5 dəfə) təzminat ödəyən klub "Çelsi" olub.



# Cerrardın Premyer Liqa klubuna keçidi rəsmiləşdi

***İngiltərənin "Aston Villa" klubu yeni baş məşqçisi Stiven Cerrardla müqavilə imzalayıb.***

Apasport.az saytının məlumatına görə, bunu Birminhem təmsilçisi açıqlayıb.

Premyer Liqa klubu 41 yaşlı ingiltərəli mütəxəssislə anlaşmanın müddətini göstərməyib. Lakin Böyük Britaniya mətbuatı öncədən tərəflərin 2,5 illik müqavilə bağlayacağını iddia edirdi. Cerrardın bunadək baş məşqçisi olduğu Şotlandiya "Reyncers"i ilə də razılıq əldə edən "Aston Villa"nın bunun üçün 2-3 milyon funt sterlinq ödədiyi də bildirilir.

Qeyd edək ki, 11 oyunda 10 xal toplayan "Aston Villa" 16-cı pillədə qərarlaşıb.

# Konte ketçup və mayonezi qadağan etdi



***"Tottenhem"in futbolçusu Antonio Konte komandanın futbolçularına bəzi qidaları qadağan edib.***

Qol.az xəbər verir ki, bu barədə "The Atletic" məlumat yayıb. 52 yaşlı mütəxəssis bəzi oyunçuların artıq çəkisi olduğunu düşünür. Buna görə də o, oyunçulara ağır qidaları, sendviçləri, ketçup və mayonezi qadağan edib. Həmçinin oyunçulara daha az meyvə şirəsi veriləcək və yeməklərdə günəbaxan yağından az istifadə ediləcək. Bunun əvəzində Konte futbolçularını çox meyvə yeməyə səsləyib.

Qeyd edək ki, Konte "Tottenhem" ilə noyabrın 2-si 2023-cü ilin yayınadək müqavilə imzalayıb.

# DÇ-2022-nin matçları bu kanallarda



***Bu gün DÇ-2022-nin seçmə mərhələsində bəzi oyunlara Azərbaycan və Rusiya telekanalları vasitəsi ilə canlı yayımla baxmaq mümkün olacaq.***

Qarşılaşmalar aşağıda adları qeyd olunan kanallar vasitəsi ilə birbaşa nümayiş etdiriləcək:

**AZƏRBAYCAN**

"CBC Sport"

21:00 Azərbaycan - Lüksemburq

**RUSİYA**

"Futbol 1"

21:00 Gürcüstan - İsveç

23:45 Malta - Xorvatiya

"Futbol 2"

21:00 Ermənistan - Şimali Makedoniya

23:45 İrlandiya - Portuqaliya

"Futbol 3"

21:00 Azərbaycan - Lüksemburq

23:45 Almaniya - Lixtenştеyn

"1-ci kanal"

21:00 Rusiya - Kipr

"S Sport"

23:45 Yunanıstan - İspaniya

"S Sport - 2"

23:45 Rumıniya - İslandiya